

"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir



8

# Güclü iqtisadiyyat, güclü dövlət, Qalib Lider



2

SƏS
№ 192 (6875)
20 oktyabr 2023-cü il.
Qiyməti 60 qəpik

# Neokolonizalizmin baş memarı


5

## Strasburqda yalan və uydurmalarını sırıyan MAHİR YALANÇI


7

## "Ermənilər göz görə-görə övladımı öldürdülər"


9

## Nəm salfet, yoxsa zəhər...


10

## Messi ilinə 12 milyon dollar qazanır!



16

## "Prezident təqaüdləri abituriyentlər üçün stimuldur"


13




# Güclü iqtisadiyyat, güclü dövlət, Qalib Lider

## *PREZİDENT İLHAM ƏLİYEV: "Biz güclü iqtisadiyyat yaratdıq və son 20 il ərzində bu istiqamətdə əldə edilmiş uğurlar göz qabağındadır"*

***"Biz bu illər ərzində Ermənistan-Azərbaycan münaqişəsini həll etmək üçün güclü bir siyasi və hüquqi zəmin yaratdıq. Eyni zamanda, biz güclü iqtisadiyyat yaratdıq və son 20 il ərzində bu istiqamətdə əldə edilmiş uğurlar göz qabağındadır. Bizim iqtisadiyyatımız dörd dəfədən çox artıb. Güclü iqtisadiyyat müstəqillik deməkdir. Müstəqillik heç vaxt şərti olmamalıdır. Əsl müstəqilliyə nail olmaq üçün güclü iqtisadiyyatın olmalıdır, güclü ordun olmalıdır".Bu sözləri Prezident İlham Əliyev oktyabrın 15-də Xankəndi şəhərində Azərbaycan Respublikasının Dövlət Bayrağını ucaltdıqdan sonra xalqa müraciətində söyləyib.***

Bəli, son illərin göstəricilərindən də məlum olduğu kimi, dayanıqlı və davamlı iqtisadi inkişafa nail olan, dünyada nüfuzu durmadan artan Azərbaycan regionun siyasi, iqtisadi və mədəni mərkəzinə çevrilmişdir. Prezident İlham Əliyevin liderliyi ilə həyata keçirilən uğurlu daxili və xarici siyasət nəticəsində ölkəmiz bu gün müəyyən edilmiş hədəflərə doğru inamla irəliləyir. Prezident İlham Əliyev Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyi münasibətilə Azərbaycan xalqına müraciətində bildirmişdir: "İqtisadi inkişafa gəldikdə, son 20 ildə dünya miqyasında Azərbaycan qədər sürətlə inkişaf edən ikinci ölkə yoxdur».

### GÜCLÜ DÖVLƏT, GÜCLÜ İQTİSADİYYAT VƏ SOSİAL RİFAH

Bugünkü Azərbaycan reallıqları deməyə əsas verir ki, sabitlik, təhlükəsizlik və inkişaf 20 illik tariximizi xarakterizə edən əsas amillərdir. Məhz bu uğurlu göstəricilər Prezident İlham Əliyev cənablarının "Güclü dövlət, güclü iqtisadiyyat və sosial rifah" konsepsiyası ilə Azərbaycanı dünyada seçilmiş ölkələrin sırasına daxil edibdir. Bunun nəticəsində, biz uğurla inkişaf edirik. Azərbaycan Prezidenti İlham Əliyev dəfələrlə çıxışlarında vurğulayıb ki, əldə edilmiş uğurların dünyada bərabəri yoxdur, bu danılmaz aksiomadır. Məhz ölkəmizin iqtisadiyyatının inkişaf tempinə görə regionda lider dövlətə çevrilməsi də təsadüfi deyil. Azərbaycan hökumətinin yürütdüyü müstəqil siyasət həmişə birmənalı olub: "Güclü dövlət, güclü iqtisadiyyat və sosial rifah. Bax, bu prinsiplərin vəhdəti bu gün Azərbaycanı dünyada seçilmiş ölkələrin sırasına daxil edibdir. Bunun nəticəsində, biz uğurla inkişaf edirik".

Prezident İlham Əliyev oktyabrın 15-də Xankəndi şəhərində Azərbaycan Respublikasının Dövlət Bayrağını ucaltdıqdan sonra xalqa müraciətində söyləyib ki, iqtisadiyyatımız 4 dəfədən çox artmışdır. Bu gün Azərbaycan tarixinin ən güclü, qüdrətli dövrünü yaşayır, Prezident İlham Əliyevin vurğuladığı kimi: "Müstəqilliyimiz heç bir zaman bu qədər möhkəm olmamışdır".

Bu gün dövlət başçısı, Ali Baş Komandan İlham Əliyev Ümummilli Lider Heydər Əliyev irsini qətiyyətlə davam etdirərək, Qarabağ problemini birdəfəlik həll etdi, ata vəsiyyətini, xalqına vermiş olduğu vədini yerini yetirərək, həqiqi lider olduğunu bir daha sübuta yetirmişdir. Bu gün bütün dünya Azərbaycan Prezidentini verdiyi sözlərə istisnasız əməl edən, sözü ilə əməlinin üst-üstə düşən, sözünün dəyərli və keçərli olduğunu görən böyük siyasi xadim kimi tanıyır..

Hələ 2003-cü ilin sentyabr ayında Azərbaycanın Baş naziri İlham Əliyev BMT Baş Assambleyasında 58-ci sessiyada çıxış etmiş, xüsusilə də Təhlükəsizlik Şurasının fəaliyyətindəki nöqsanları cəsur bir şəkildə dilə gətirərək BMT-nin yenidən strukturlaşmasında yeni reallıqların nəzərə alınmalı olduğunu bildirmişdir. 20 il bundan əvvəl dilə gətirilən fikirlər bu günün qlobal konfiqurasiyasında özünü doğruldaraq, BMT-nin fəaliyyətindəki disfunksional cəhətləri göstərir.

### GÜCLÜ DÖVLƏT VƏ GÜCLÜ LİDERLİK BİZƏ ZƏFƏRİMİZİ YAŞATDI

Əlbəttə ki, güclü dövlət və güclü Liderlik bizə Zəfərimizi yaşatdı. 30 ilə yaxın işğalda olan torpaqlarımız Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə azad olundu. Xalq-iqtidar birliyi, ordu quruculuğu burada önəmli faktor olduğunu qeyd etməliyik. Zəfər qazanmış Azərbaycanı daha uğurlu gələcək gözləyir. Qarabağ və Şərqi Zəngəzur yeni inkişaf dövrünü yaşayır. "Dəmir Yumruğ"un yaratdığı yeni reallıqlarla hər kəs hesablaşmalıdır. Dövlət başçısının Qarabağ və Şərqi Zəngəzuru yaşıl enerji bölgələri elan edib və həmin ərazilərin sosial-iqtisadi inkişafı ilə bağlı nəzərdə tutulan layihələr icra olunmaqdadır. Vurğulamaq yerinə düşər ki, Azərbaycanın yaratdığı yeni reallıqlar regional sülh, sabitlik, təhlükəsizlik baxımından strateji əhəmiyyət kəsb edir. Qarabağ Zəfəri sayəsində regionda yaranmış yeni geosiyasi vəziyyət region dövlətlərlə yanaşı, Avrasiya məkanında sülh və inkişafa yol açır. Zəngəzur dəhlizinin yaradılması təkcə iqtisadi deyil, həm də böyük siyasi əhəmiyyət daşıyan hadisə kimi əhəmiyyətə malikdir. Bu, türk dünyasını, Avropanı, eləcə də qonşu dövlətləri birləşdirəcək layihədir.Qətiyyətlə deyə bilərik ki, ötən 20 il ərizində Azərbaycan dünyanın ən sürətlə inkişaf edən, yenilşən, müasirləşən, demokratikləşən ölkəsi kimi yüksək imicə sahibdir.

### "BİZİM MƏQSƏDİMİZ İQTİSADİ CƏHƏTDƏN GÜCLÜ, SİYASİ CƏHƏTDƏN MÜSTƏQİL DÖVLƏT QURMAQDIR"

"Əsl siyasət konkret, real iş görməkdir" – deyən Prezident İlham Əliyevin məqsədyönlü fəaliyyəti nəticəsində hazırda, ilk növbədə, Azərbaycanın qüdrətli dövlətə çevrilməsi yolunda son dərəcə mühüm addımlar atılmaqdadır. "Bizim məqsədimiz iqtisadi cəhətdən güclü, siyasi cəhətdən müstəqil dövlət qurmaqdır" – ölkə başçısının bu sözləri aparılan siyasətin ana xəttidir. Çünki iqtisadi müstəqillik siyasi müstəqillik üçün əsasdır.Təkcə cari ilin ötən dövrünün reallıqlarına diqqət yetirsək, möhkəm təməlin uğurların davamlılığında rolunu aydın şəkildə görərik. Belə ki, iyulun 11-də möhtərəm Prezidentimiz cənab İlham Əliyevin sədrliyi ilə 2023-cü ilin altı ayının sosial-iqtisadi yekunlarına həsr olunmuş müşavirədə dövlətimizin başçısı vurğulayıb ki, ölkəmiz uğurla inkişaf edir, bütün istiqamətlər üzrə qarşıya qoyulan vəzifələr icra edilir. Dövlətimizin başçısı onu da qeyd edib ki, iqtisadi və maliyyə imkanlarımızın genişliyi hər bir sahədə davamlı uğurlara nail olmaq üçün zəruri tədbirlərin görülməsinə stimul verir. Maliyyə sektorundakı nizam-intizamın möhkəmləndirilməsi, vergi və gömrük orqanlarında islahatların davam etdirilməsi, şəffaflığın təmin edilməsi və digər amillər ilin ortasında büdcəyə yenidən baxmağa və dürüstləşmə aparmağa imkan verdi. Dövlətimizin başçısı hazırda büdcəmizin 36 milyard manatdan çox olduğunu xüsusi vurğulayaraq əlavə etdi ki, bu, həm ölkə qarşısında duran əsas investisiya layihələrini icra etməyə, həm azad edilmiş torpaqlarda geniş quruculuq işlərini aparmağa və həm də hərbi gücümüzü artırmağa imkanlar yaradır.

Hazırkı dövrün əsas hədəfi olan hərbi gücümüzün artırılmasına gəldikdə, Azərbaycan İkinci Qarabağ münaqişəsində 30 ilin işğalına son qoyub ərazi bütövlüyünü və tarixi ədaləti bərpa etməklə nəyə qadir olduğunu dünyaya nümayiş etdirdi. "Müzəffər Ali Baş Komandan İlham Əliyev postmünaqişə dövrünün hədəflərini açıqlayarkən hərbi qüdrətimizin artırılmasını xüsusi qeyd etdi. Bu gün Azərbaycan Silahlı Qüvvələri daha böyük hərbi potensiala malikdir. Ordumuz həm döyüş qabiliyyəti, həm də silah və texnika ilə təchizat baxımından daha da güclü olacaq. Dövlətimizin başçısı bir daha bildirdi ki, iki istiqamət üzrə - hərbi potensiala və azad edilmiş torpaqların bərpasına nə qədər vəsait lazımdırsa, o qədər də ayrılacaq. Bu siyasət ölkəmizin qüdrətini artırır. Çünki bu gün dünyada güc amili ön plandadır. Son üç ilin reallıqları bir daha təsdiqlədi ki, heç kim Azərbaycanın iradəsinə təsir edə bilməz. Azərbaycanla hədə-qorxu, ultimatum dili ilə heç kim danışa bilməz və bundan sonra belə cəhdlər də olmayacaq.

Bir sözlə, bu göstərilən reallıqlar bir daha Azərbaycanın güclü iqtisadiyyata malik olduğunu təsdiqləyir, ölkədə iqtisadiyyatın şaxələndirilməsi siyasətinin uğurla həyata keçirilməsindən, həmçinin neft-qaz sektorundan asılılığın azaldılmasından xəbər verir. Çünki iqtisadi müstəqillik siyasi müstəqillik üçün əsasdır. Dövlət başçısı İlham Əliyevin çıxışlarında vurğuladığı kimi, bu da bizim uğurla həyata keçirdiyimiz müstəqil xarici siyasət kursunu aparmaq imkanının mühüm amilidir və bu gün Azərbaycanın ədalətə və beynəlxalq hüquqa söykənən mövqedədir. Və qloballaşma şəraitində sürətlə dəyişən dünyanın bütün predmetləri nəzərə alınmaqla, əminliklə deyə bilərik ki, Azərbaycan bu gün inamla inkişaf edən ölkələr sırasında olmaqla, müstəqil, güclü iqtisadiyyata və maliyyə resurslarına malik, özünü təmin edən və mövqeyini müdafiə etməyi bacaran ölkədir. Bütün bunlar Azərbaycanın müstəqil siyasətinin nəticəsi, hər bir sahədə zəngin təcrübəyə malik olmasının təsdiqidir.

Bax, budur müasir Azərbaycan həqiqətləri. Əlbəttə ki, bu gün Azərbaycanın qazandığı uğurları şərtləndirən əsas amil Prezident İlham Əliyevin düşünülmüş iqtisadi konsepsiyasının tam doğru formada icrasıdır. Və yuxarıda deyilənlərdən hasil olan nəticə ondan ibarətdir ki, iqtisadi müstəqilliyin təmin edilməsi Azərbaycanın tarixi nailiyyətidir. Bu gün heç bir xarici dövlət, heç bir beynəlxalq təşkilat ölkəmizlə diktat dili ilə danışmır və danışa da bilməz. Məhz, son illər ərzində görülən işlər, açılan istehsal müəssisələri bir daha onu göstərir ki, Prezident İlham Əliyev Azərbaycan iqtisadiyyatını düzgün əsaslar üzərində qurmaqla dayanıqlı inkişafı təmin edir, ən əsası dünyaya yeni iqtisadi modeli nümayiş etdirir.

Bir sözlə, bütün bu reallıqlar birmənalı şəkildə onu deməyə əsas verir ki, son 20 ildə yürütdüyü siyasətlə Azərbaycanı tarixinin ən qüdrətli dövlətinə çevirən Qalib Lider, Prezident İlham Əliyev ölkəmizi daha möhtəşəm qələbələrə, zəfərlərə doğru aparır və aparacaq! Çünki bizim 30 ildən sonra işğal olunan torpaqlarımızı öz sərkərdəliyi və qətiyyəti ilə azad edən, dövlətimizi qalib dövlət kimi dünyaya təqdim edən bir LİDERİ var.

***RƏFİQƏ KAMALQIZI***






# Bakı yenə də diqqət mərkəzində - Azərbaycan qadınlarının VI qurultayı keçirilib

***Dünən Bakıda Azərbaycan Qadınlarının VI Qurultayı keçirilib. Qeyd edək ki, ölkənin bütün regionlarından olan 600-ə yaxın qadının bir araya gəldiyi Azərbaycan Qadınlarının VI Qurultayı ölkəmizdə qadın hərəkatının əsasını qoymuş Ümummilli lider Heydər Əliyevin 100 illik yubileyi, eyni zamanda, ilk Qadın Qurultayının 25 ili münasibətilə keçirilir. Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi ilə başlayan tədbirdə ölkəmizin ərazi bütövlüyü və suverenliyi uğrunda mübarizədə canlarından keçmiş şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad olundu.***

## *İLHAM ƏLİYEV: “Fədakar analarımızın Vətən sevgisinin bariz nümunəsi döyüş meydanındakı unudulmaz rəşadəti ilə xalqımızın mübarizlik ruhunu nümayiş etdirən milli əqidəli gənc nəsildir”*

Sonra Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Humanitar siyasət, diaspor, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri Fərəh Əliyeva Prezident İlham Əliyevin Qurultayın iştirakçılarına ünvanladığı müraciətini oxuyub. Prezident İlham Əliyevin Bakıda keçirilən Azərbaycan Qadınlarının VI Qurultayının iştirakçılarına müraciətində qeyd olunub ki, qloballaşmanın vüsət aldığı və milli özünəməxsusluğu sürəkli dəyişikliklərə məruz qoyduğu bir vaxtda mədəni-mənəvi dəyərlərimizin qorunub saxlanılmasında və yaşadılmasında Azərbaycan qadınlarının xidmətləri misilsizdir: «Məmnunluq hissi ilə bildirmək istəyirəm ki, onlar eyni zamanda maarifpərvər sələflərinin ənənələrini müvəffəqiyyətlə davam etdirərək, artan təşəbbüskarlıqları və dolğun sosial-mədəni fəaliyyətləri ilə ictimai həyatımıza yeni güc qatır, müstəqillik salnaməmizə parlaq səhifələr yazırlar. Hər bir nailiyyətimizdə qadınların böyük zəhməti vardır. Fədakar analarımızın Vətən sevgisinin bariz nümunəsi dövlətimizin suverenliyi və ərazi bütövlüyünün bərpası naminə döyüş meydanındakı unudulmaz rəşadəti ilə xalqımızın mübarizlik ruhunu nümayiş etdirən milli əqidəli gənc nəsildir”.

### QADINLARIMIZ BÖYÜK QAYIDIŞLA BAĞLI LAYİHƏLƏRİN FƏAL İŞTİRAKÇILARIDIR

”Azərbaycan öz tarixinin taleyüklü hadisələrlə zəngin, çox şərəfli bir dövrünü yaşayır”. Bu, Prezident İlham Əliyevin Azərbaycan qadınlarının VI qurultayının iştirakçılarına müraciətində əksini tapıb. “İşğaldan azad edilmiş ərazilərimizə Böyük Qayıdışla bağlı hazırda genişmiqyaslı müxtəlif layihələr icra olunmaqdadır. Vətənimizin rifahı üçün var qüvvələrini əsirgəməyən qadınlarımız bu nəhəng quruculuq işlərinin fəal iştirakçılarıdır», - Prezident qeyd edib. Dövlətimizin başçısı bir daha əminliklə müraciətində vurğulayıb ki, qurultayda aktual məsələlər müzakirə ediləcək və ölkəmizdə qadın hərəkatını milli prioritetlərdən irəli gələn vəzifələrin layiqincə həllinə istiqamətləndirəcəkdir: “Əminəm ki, qurultayınız aktual mövzulardakı ətraflı müzakirələri və dəyərli tövsiyələri ilə faydalı platforma rolunu oynayaraq, ölkəmizdə qadın hərəkatını milli prioritetlərdən irəli gələn vəzifələrin layiqincə həllinə istiqamətləndirəcəkdir”.

### AZƏRBAYCAN QADINI XALQIMIZIN ADINI HƏMİŞƏ UCA TUTUB

Azərbaycan qadını öz zəkası, müdrikliyi, sədaqəti, qəhrəmanlığı, vəfası, yüksək analıq keyfiyyəti ilə hər zaman xalqımızın adını uca tutub. Azərbaycan qadını istər Xalq Cümhuriyyəti dövründə, istərsə də sovet hakimiyyəti illərində yaradılan imkanlardan xalqın, dövlətin, cəmiyyətin mənafeyi naminə çox səmərəli istifadə edib. Bu gün isə müstəqil Azərbaycanda qadınların cəmiyyətdəki yeri və rolu həm xalqımızın öz mental ənənələrinə bəslədiyi hörmət, həm də dövlətimizin yeritdiyi siyasət sayəsində yüksək qiymətləndirilir. Çağdaş Azərbaycan qadını ana olmaqla yanaşı, həm də bacarıqlı siyasətçi, iş adamı, dövlət məmuru, xalqın inanıb səs verdiyi deputatdır. Bu fəallıq Azərbaycan qadınının malik olduğu tarixi ənənələrlə yanaşı, ölkəmizdə həyata keçirilən gender siyasətinin mahiyyətindən, qadınlara cəmiyyətin tamhüquqlu üzvü kimi bütün imkanlardan bərabər istifadə üçün zəruri şəraitin yaradılmasından irəli gəlir.

Ulu öndər Heydər Əliyevin qətiyyətli addımları nəticəsində 1993-cü ildən qadınların ictimai-siyasi həyata transformasiyası, onların dövlət idarəçiliyində təmsilçiliyi, bütün sahələrdə kişilərlə bərabər hüquqlara malik olması dövlət idarəçiliyi kursunun prioritet istiqamətlərindən birinə çevrilib. Heydər Əliyevin Azərbaycan qadını ilə bağlı fikirləri olduqca qiymətlidir: ”Azərbaycan xalqı həmişə qadına, onun cəmiyyətin həyatında oynadığı rola, tutduğu yüksək mövqeyə böyük hörmətlə yanaşmışdır. Xalqın ən əziz, qiymətli və müqəddəs hesab etdiyi vətən, torpaq, dil anlayışları ana adı ilə bərabər tutulmuşdur. Qadın adına göstərilən dərin ehtiram, sonsuz ana məhəbbəti söz və sənət abidələrimizdə öz parlaq təcəssümünü tapmışdır. Ədəbiyyatımızın və mədəniyyətimizin görkəmli nümayəndələri öz əsərlərində Azərbaycan qadınının mərdliyini, gözəlliyini, mənəvi saflığını vəsf etmişlər”.

Ulu öndər Heydər Əliyevin 1998-ci il 14 yanvar tarixli fərmanı ilə gender siyasətinin həyata keçirilməsi məqsədi ilə Qadın problemləri üzrə Dövlət Komitəsi yaradılıb. Komitənin yaradılmasında əsas məqsəd qadınların hüquqlarının qorunmasından və ölkəmizin sosial və siyasi həyatında onların iştirakının artırılmasından ibarət olmuşdur. 2000-ci ildə ulu öndər Heydər Əliyev qadınların kişilərlə hüquq bərabərliyini, xüsusilə, onların dövlət idarəçiliyi sistemində lazımi səviyyədə təmsil olunmasını əməli surətdə təmin etmək məqsədilə ”Azərbaycan Respublikasında dövlət qadın siyasətinin həyata keçirilməsi haqqında” fərman imzalayıb. Fərmanda qadınların bugünkü inkişaf, tərəqqi dövrünə qədər keçdiyi gərgin, keşməkeşli mübarizə yoluna nəzər salınıb, respublikamızda mötəbər və möhtəşəm qadın hərəkatının fəaliyyətinə yüksək qiymət verilib. 2000-ci ildə Azərbaycan Respublikasının Qadın Problemləri üzrə Milli Fəaliyyət Planı (2000-2005-ci illər) təsdiq edilib. Milli Fəaliyyət Planında dövlət tərəfindən qadın probleminə daim diqqət yetirilməsi, qadın problemləri ilə bağlı təxirəsalınmaz konkret tədbirlərin həyata keçirilməsi, dövlət proqramlarının hazırlanması öz əksini tapıb. Bu gün Azərbaycan qadınının həyatımızın bütün sahələrində əldə etdiyi uğurlar, nümayiş etdirdiyi yüksək göstəricilər ölkəmizdə əsası xalqımızın ümummilli lideri Heydər Əliyev tərəfindən qoyulmuş qadın siyasətinin inkişafının sistemli şəkildə həyata keçirilməsinin məntiqi nəticəsidir.

“Əminəm ki, cəmiyyət qarşısında öz məsuliyyətini bütün dərinliyi ilə dərk edən Azərbaycan qadını bundan sonra da müstəqil respublikamızın tərəqqisinə böyük töhfələr verəcəkdir”, - deyən möhtərəm Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan cəmiyyətində qadınların rolunun yüksəldilməsi üçün hərtərəfli şərait yaradılır, Heydər Əliyev siyasəti ardıcıl həyata keçirilir. Ulu öndərin yolunu yeni meyarlarla zənginləşdirərək yüksək səviyyədə davam etdirən Prezident İlham Əliyev dövlət qadın siyasətinin daha böyük nailiyyətlərlə icrasını təmin etdi. Onun rəhbərliyi ilə yeni siyasi və iqtisadi sistem qurmuş, sürətlə inkişaf edərək bölgənin lider dövlətinə çevrilmiş Azərbaycan gender siyasətinin reallaşdırılması məsələsində də yeniliklərə imza atdı. 2006-cı ildə qadınlarla bağlı işlərin daha mütəşəkkil və ardıcıl şəkildə aparılması üçün Prezident İlham Əliyev tərəfindən Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi yaradıldı. Hazırda Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi ailə, qadın və uşaq prolblemləri ilə iş sahəsində dövlət siyasətini və tənzimlənməsini həyata keçirən mərkəzi icra hakimiyyəti orqanıdır.

### MEHRİBAN XANIM ƏLİYEVA AZƏRBAYCAN QADINLARINA ÖRNƏKDİR

Azərbaycan qadını tarixin bütün dövrlərində öz iradəsi və mərdliyi, saflığı və sədaqəti ilə cəmiyyətimizin həyatında, xalqımızın milli-mənəvi dəyərlər sisteminin formalaşdırılmasında müstəsna rol oynayıb. Azərbaycanın siyasi-ictimai, elmi, ədəbi-bədii, humanitar və digər sahələrdə öz sözünü demiş qadınlar xüsusilə XX əsrdə qısa müddət ərzində yüzilliklərə bərabər inkişaf yolu keçib, onların cəmiyyətdə, ictimai həyatda, ailədəki mövqeyində köklü dəyişikliklər baş verib.

Söylənilənlərin fonunda xüsusilə qeyd olunmalıdır ki, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın hərtərəfli fəaliyyəti bir nümunədir. Mehriban xanım öz genişmiyaslı və səmərəli fəaliyyəti ilə həm ölkədə, həm də beynəlxalq aləmdə Azərbaycan qadınının nüfuzunu daha da yüksəklərə qaldırır. Bu gün Mehriban xanım Əliyeva Azərbaycan qadın hərəkatının önündə gedərək beynəlxalq təşkilatlarda xanımlarımızı ləyaqətlə təmsil edir. Mehriban xanım Əliyevanın həyata keçirdiyi böyük missiya Azərbaycanda qadın hüquqlarının yüksək səviyyədə təmin edilməsinə sübutdur.

Bütün bunlar Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın humanistliyinin göstəricisidir. İnanırıq ki, Azərbaycanın ən ali dövlət mükafatı olan ”Heydər Əliyev” ordeni ilə təltif edilən, Azərbaycan qadınının müsbət keyfiyyətlərini özündə ehtiva edən Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva bundan sonra da Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin silahdaşı olaraq dövlətimizin inkişaf edərək daha da qüdrətlənməsi istiqamətində əzmlə, uğurla çalışacaqdır.

Qeyd edək ki, Qurultay ölkəmizdə qadın hərəkatının əsasını qoymuş Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyi, eyni zamanda, müstəqil Azərbaycanın ilk Qadın Qurultayının 25 ili münasibətilə təşkil edilən tdbirdə paytaxt və bölgələrdən 600-ə yaxın qadın iştirak edir. Azərbaycan Qadınlarının VI Qurultayında “Ulu Öndər Heydər Əliyevin əsas missiyası: Böyük Qayıdış”, “Gender məsələləri hüquqi müstəvidə: Mövcud vəziyyət, qarşıda duran məsələlər”, “Sosial-iqtisadi islahatların gender aspektləri. Formal və qeyri-formal məşğulluqda qadın təmsilçiliyi”, “Qadın hüquqlarının həyata keçirilməsində çağırışlar və qlobal tendensiyalar” mövzuları üzrə 4 paneldə müzakirələr aparılıb. Tədbirdə iştirak edən Türkiyə, Özbəkistan və Tacikistanın dövlət rəsmiləri, Milli Məclisin deputatları, dövlət və qeyri-hökumət, eləcə də beynəlxalq təşkilatların və xarici dövlətlərin Azərbaycandakı səfirliklərinin nümayəndələri, görkəmli ictimai-siyasi xadimlər çıxış edərək panel mövzular ətrafında fikir və təkliflərini bildiriblər. Qurultayın yekununda müzakirə və təkliflər əsasında qətnamə qəbul olunub.

Sonda Azərbaycan Qadınlarının VI Qurultayının iştirakçıları Prezident İlham Əliyevə müraciət ünvanlayıblar.

***R. HÜSEYNOVA***





*Vətən müharibəsində Azərbaycan tarixi günlərini yaşadı. Azərbaycan Ordusunun 2020-ci il sentyabrın 27-də Qarabağda başladığı uğurlu əks-hücum əməliyyatı nəticəsində işğalda olan şəhər, qəsəbə və kəndlərimiz azad edildi. Tarixin yaşanılacaq zamanlarında Zəfər tariximiz şərəf tarixi olaraq vərəqlənəcəkdir. Müharibənin qızğın getdiyi günlərdə demək olar ki, hər gün kənd, qəsəbə və şəhərlərin işğaldan azad olunması xəbərini eşidirdik.*

# 44 günlük Vətən müharibəsi: QÜRUR TARIXIMIZ!

Üç il bundan əvvəl şanlı tariximizin yeni səhifələri yazıldı və Ermənistanın 30 ilə yaxın davam edən işğalçılıq siyasətinə son qoyuldu. "27 ildən sonra biz işğala son qoyduq, düşməni öz torpağımızdan qovduq. Müzəffər Azərbaycan Ordusu öz şərəfli missiyasını şərəflə yerinə yetirdi. İkinci Qarabağ müharibəsi bizim gücümüzü göstərdi və milli ruhumuzu göstərdi. Göstərdi ki, biz heç vaxt o vəziyyətlə barışmaq fikrində deyildik" – deyə Azərbaycan Prezidenti İlham Əliyev bildirmişdir. Azərbaycanın İkinci Qarabağ, 44 günlük Vətən müharibəsi zamanı möhtəşəm qələbə qazanması, uzun illərdən bəri Ermənistanın işğalı altında olan tarixi torpaqlarımızın azad olunması, ölkəmizin ərazi bütövlüyünün və tarixi ədalətin bərpa edilməsi, heç şübhəsiz, xalqımızın çoxəsirlik dövlətçilik tarixinin ən şərəfli səhifələrindən biridir. Vətən müharibəsində Azərbaycan xalqı ilə yanaşı, bütün dünya ermənilərin nə qədər vandal, vəhşi xislətə malik olduqlarının bir daha şahidi oldu. Döyüş meydanında ağır məğlubiyyətlərlə üzləşən Ermənistan ordumuzun hər yeni uğuruna yalnız bir o qədər aciz, azğın və namərd şəkildə reaksiya verirdi. Ermənistan ordusu dəfələrlə döyüş meydanından uzaq olan, hərbi obyektlərin olmadığı və mülki vətəndaşların məskunlaşdığı Azərbaycan torpaqlarını hədəf alaraq raket və mərmilər vasitəsilə kütləvi itkilərə səbəb olan terror aktları törətdi. Yaşanan dəhşətli hadisələr bütün dünyanı sarsıtsa da, xalqımız döyüş ruhunu, birliyini və iradəsini itirməyərək daha da əzmlə və mərdcəsinə Ali Baş Komandanı və ordumuzu dəstəkləməyə davam etdi. Həyatını itirmiş mülki həmvətənlərimizin qisasını isə rəşadətli ordumuz döyüş meydanında müvəffəqiyyətlə aldı.

## 40-A YAXIN OSA ZENİT-RAKET KOMPLEKSİ QURĞUSUNU, TOP QURĞULARINI MƏHV ETMİŞİK"

"Cəbrayıl rayonunun Soltanlı, Əmirvarlı, Maşanlı, Həsənli, Əlikeyxanlı, Qumlaq, Hacılı, Göyərçinveysəlli, Niyazqullar, Keçəl Məmmədli, Şahvəlli, Hacı İsmayıllı, İsaqlı kəndləri azad edilmişdir. Qarabağ Azərbaycandır!". Bu barədə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 19 oktyabr 2020-ci il tarixində özünün rəsmi "Twitter" hesabında qeyd etmişdir. Azərbaycan Ordusunun sentyabrın 27-də Qarabağda başladığı uğurlu əks-hücum əməliyyatı nəticəsində artıq həmin günə qədər bir neçə işğal altında olan kənd və qəsəbələrimiz, şəhərlərimiz azad olunmuşdur. Azərbaycanın ərazi bütövlüyü uğrunda aparılan əks-hücum əməliyyatları öz nəticəsini verməkdə idi. Əlbəttə ki, 27 sentyabrdan oktyabrın 19-na kimi Ermənistanın itkilərinin sayı-hesabı yox idi. Düşmənin maddi itkisinin 1 milyard dollardan çox olması rəsmi mənbələrdə qeyd olunsa da real itkilər rəsmi elan edilən rəqəmlərdən dəfələrlə artıq idi. İki dəfə humanitar atəşkəsin elan edilməsinə baxmayaraq, Ermənistan atəşkəsin şərtlərini kobud şəkildə pozduğu üçün layiqli cavabını alırdı. "Biz Ermənistanın işğal edilmiş ərazilərdə yerləşən əsas hərbi-texniki potensialını praktiki olaraq məhv etmişik. Mən bu rəqəmləri göstərmişəm. 230-dan çox tank əsasən pilotsuz uçuş aparatları vasitəsilə, habelə tank əleyhinə müasir mübarizə sistemləri – bunu gizlətmirəm, özü tuşlanan "Spike" raketləri vasitəsilə məhv edilib. Biz dünənə qədər 36 tankı qənimət götürmüşük, çoxlu sayda digər texnikanı, o cümlədən ən müasir "S-300" zenit-raket komplekslərini, bir neçə işəsalma qurğusunu, 40-a yaxın OSA zenit-raket kompleksi qurğusunu, TOP qurğularını məhv etmişik", - deyə Azərbaycan Prezidenti İlham Əliyev bunu 2020-ci ilin 19 oktyabr tarixində Rusiyanın TASS İnformasiya Agentliyinə müsahibəsində bildirmişdi.

## "GECƏ VAXTI - YATMIŞ GƏNCƏ ŞƏHƏRİNİN YAŞAYIŞ MƏHƏLLƏLƏRİNƏ MƏQSƏDYÖNLÜ ŞƏKİLDƏ ZƏRBƏ ENDİRİLDİ"

Baş verənlərin fonunda Ermənistan hər gün sarsıdıcı zərbələrin hədəfində olur, geri çəkilməyə başlayır, maddi-texniki bazası durmadan zəifləyir və şəxsi heyəti tamamilə zərərsizləşdirilirdi. "Biz öz tərəfdaşlarımızla əlaqələr çərçivəsində üzərimizə götürdüyümüz öhdəliklərə sadiqik. Həm əvvəldən, həm də münaqişənin nizamlanmasına dair danışıqlar prosesində biz həmişə həm beynəlxalq hüquqa, həm də münaqişənin dinc yolla həllinə sadiqliyimizə, o cümlədən Moskva danışıqlarından sonra Azərbaycanın öz üzərinə götürdüyü öhdəliklərə əsaslanmışıq, həmin öhdəlikləri yerinə yetirməyə çalışırdıq və buna hazırlaşırdıq", - deyə Prezident İlham Əliyev müsahibəsində atəşkəslə bağlı suala cavabında bildirmişdi. Ermənistan atəşkəs rejimini kobud şəkildə pozduğunu diqqətə çatdıran dövlətimizin başçısı demişdir ki, danışıqlardan sonra heç 24 saat keçməmiş Gəncə şəhərinə hücum edildi: "Gecə vaxtı - yatmış Gəncə şəhərinin yaşayış məhəllələrinə məqsədyönlü şəkildə zərbə endirildi. Birinci hücumdan sonra, - iki hücum olub, - həlak olanlar və yaralananlar hədsiz çox idi. Yeni Ermənistan atəşkəsi nümayişkaranə şəkildə pozdu. Beləliklə o, vasitəçilərə hörmətsizlik, Moskvada belə uzun danışıqlardan sonra öz üzərinə götürdüyü öhdəliklərə hörmətsizlik göstərdi".

Azərbaycan Prezidenti qeyd edib ki, bundan əvvəl, həlak olanların cəsədlərinin, əsirlərin və girovların mübadiləsi məqsədilə atəşkəsin şərtləri razılaşdırıldıqdan sonra Ermənistan döyüş meydanında da atəşkəs rejimini pozurdu. Lakin onlar bununla kifayətlənmədi və Gəncə şəhərinə hücum etdilər. "Yenə gecə vaxtı. Bu, çox alçaq cinayətdir. Bu, beynəlxalq terrorizmdir. Dünya birliyinin bu qanlı cinayəti bir səslə pisləməsi o deməkdir ki, bu, ermənilərə baha başa gələcək. BMT-nin Baş katibi də, Avropa İttifaqı da, bir çox ölkələr də bu beynəlxalq terrorizm aktını milli səviyyədə pisləyiblər", - deyə Prezident İlham Əliyev vurğulamışdı.



## ERMƏNİSTANIN MƏĞLUBİYYƏTİNİN AÇIQ ETİRAFI

Əlbəttə ki, müharibənin gedişi deməyə əsas verirdi ki, düşmən döyüş meydanında çox böyük itkilər verərək uduzmuş dövlətə çevrilirdi. Vətən müharibəsi Azərbaycanın böyük Zəfəri ilə bitdi. Azərbaycan son 2 əsrlik tarixində ilk dəfə idi ki, müharibədən ərazi itkisi ilə yox, ərazi bütövlüyünü bərpa edərək çıxdı. Uzun illərdən bəri düşmən tapdağı altında qalmış torpaqlarımızın işğaldan azad edilməsi ilk növbədə Azərbaycan xalqının özünə inamını qaytardı, xalqın öz liderinə, onun gücünə etibarını daha da möhkəmləndirdi. 44 günlük müharibə Azərbaycan xalqının, onun Liderinin, şanlı ordumuzun gücünü bütün dünyaya nümayiş etdirdi. 30 ilə yaxın müddətdə səbir göstərən xalqımız nəhayət, qələbəyə çatdı. 2020-ci ilin noyabrın 10-u ölkəmiz üçün tarixi bir gün oldu. Rəşadətli Azərbaycan Ordusunun döyüşlərdə əldə etdiyi zəfər Ermənistanı masa arxasında oturmağa məcbur etdi. Nəhayət, Azərbaycan, Rusiya prezidentləri və Ermənistanın baş naziri birgə bəyanat imzaladılar. Bu sənəd Ermənistanın məğlubiyyətinin açıq etirafı olaraq yaddaşlara həkk olundu. Azərbaycan, Rusiya prezidentləri və Ermənistanın baş nazirinin birgə imzaladıqları bəyanat mahiyyət etibarilə Ermənistanın kapitulyasiyasıdır. Döyüş meydanında məğlubiyyətini dərk edən Ermənistan Prezident İlham Əliyevin münaqişənin ilk günlərindən bəyan etdiyi şərtləri qəbul etdi və kapitulyasiya şərtlərinə razılığını verdi. Razılaşmanın şərtlərinə əsasən, Ermənistan Azərbaycanın işğal altında olan Ağdam, Kəlbəcər və Laçın rayonlarından qoşunlarını çıxaracağını öhdəsinə götürdü.

## HƏRB MEYDANINDA SÖZÜNÜ DEYƏN AZƏRBAYCAN, QURUCULUQ MEYDANINDA DA SÖZÜNÜ DEYİR

Prezident İlham Əliyevin dünyanın aparıcı mediasına verdiyi 30-dan artıq müsahibə dünya informasiya məkanında ölkəmizə qarşı olan hücumları darmadağın etdi. Regionda Azərbaycanın maraqlarına cavab verən yeni siyasi reallıq yarandı. Yekun nəticədə Azərbaycan vətəndaşlarının 30 ilə yaxın davam edən torpaq həsrətinə son qoyuldu. Prezident İlham Əliyevin vurğuladığı kimi, nəyi necə və nə zaman etməyi özünün yaxşı bildiyini bir daha nümayiş etdirdi. Bu qələbə xalqın inamını bir daha özünə qaytardı. Bütün dünya gördü ki, Azərbaycan xalqı məğlubiyyətlə barışmadı və öz amalına qovuşdu.

Əlbəttə, ölkəmizin bu tarixi nailiyyəti Zəfər tariximiz təsadüfi xarakter daşımır və ötən müddət ərzində həm ordu quruculuğu sahəsində, həm diplomatiya cəbhəsində görülən işlərin, eyni zamanda beynəlxalq informasiya müstəvisində Azərbaycan reallıqlarının sistemli və məqsədyönlü şəkildə təbliğinin nəticəsidir. O da xüsusilə vurğulanmalıdır ki, Azərbaycanın bu qürurverici və əzəmətli qələbəsinin müəllifi xalqımızın Ulu Öndəri Heydər Əliyevin layiqli davamçısı ölkə Prezidenti, Ali Baş Komandan Cənab İlham Əliyevdir.

Azərbaycanın iqtisadi gücü işğaldan azad olunan ərazilərdə yeni həyatın başlanmasına imkan verir. Artıq Şuşada, Füzulidə, Zəngilanda görülən işlər bunu deməyə əsas verir. Bu, Azərbaycanın gücünün göstəricisidir. Hərb meydanında sözünü deyən Azərbaycan, bu gün quruculuq meydanında da imza atdığı layihələri ilə sözünü deyir.

***Zümrüd BAYRAMOVA***



# Neokolonizalizmin baş memarı




***Kolonializm bir dövlətin başqa xalqların, dövlətlərin, birliklərin siyasi və iqtisadi suverenliyini öz təsiri altına almasına deyilir və bunun digər adı müstəmləkəçilikdir. Müstəmləkəçilər ümumiyyətlə, istismar etdikləri ölkələrin qaynaqlarına, bazarlarına əl qoyar və eyni zamanda xalqın sosial-mədəni, dini dəyərlərinə təzyiq tətbiq edərlər. Eyni zamanda, bu sistemi qanuniləşdirmək və ya yaymaq üçün dindən də istifadə edirlər, inanclarla özlərinin əsarət altında saxladıqları insanlardan daha üstün olduqlarına hamını inandırırlar. Koloniyaçılar bu siyasətlərini digər yöndən əsaslandırmağa çalışırlar ki, guya onlar inkişaf etməmiş cəmiyyətləri rifaha qovuşdurmaq və inkişaflarında iştirak etmək məqsədiylə bu addımı atmağa məcburdurlar.***




Bunu sözdə elmi nəzəriyyələrlə də dəstəklənməyə çalışırlar. XIX əsrdə Avropada yayılmış və avropalıların bütün dünyada müstəmləkəçi güc olaraq inkişaf etdirilmiş bu yanaşma zaman keçdikcə qanun halına salınmış, hətta buna qarşı çıxanlar həmin qondarma qanunla cəzalandırılmışlar. Bu tendensiya, öyrəncəlik neokolonializmin başında duran Fransada "erməni soyqırımını inkar edənlərin cəzalandırılması" ilə oxşardır. Fransa müstəmləkə qurmaq, böyük torpaqlar ələ keçirmək, böyük dövlət olmaq üçün hər cür imkandan istifadə edib, bu siyasəti bu gün də davam etdirir.

Son illər Fransanın müstəmləkəçilik siyasətinə qarşı direniş göstərən ölkələrin sayı artmaqdadır. Parisin əsrlər boyu əzdiyi, istismar etdiyi, yağmaladığı, sümürdüyü, məhvinə fərman verdiyi xalqlar çoxdur. Afrikadakı ölkələrin hər birinin tarixində Fransa adlı qara ləkə görmək olar. "Qara qitə" bu gün də Fransa müstəmləkəsindən qurtula bilmir. Üsyanlar, etirazlar, silahlı müqavimətlər Fransanı kolonial həvəsini söndürə bilmir, hələ də müxtəlif adlar altında öz qoşunlarını Afrika ölkələrinin ərazilərində saxlamaqdadır. Amma qovulur, həm də iti qovan kimi

Afrikadan, müstəmləkə bölgələrindən qovulan Fransa yeni region, bölgə axtarışındadır. Sümürgəçilikdən, istismarçılıqdan, başqasının qazancı ilə yaşamaqdan başqa bir yetənəyi olmayan fransız xalqı və onun yaratdığı dövlət Cənubi Qafqaza yerləşmək, bu torpaqların bərəkətini sümürmək üçün imkan axtarırdı. Bunun üçün təkcə SSRİ-nin dağılmasını səbirsizliklə gözləmirdi, həm də həm də onun məhvini tezləşdirmək üçün min bir hiylə qururdu. Qarabağda separatçılığın çiçəklənməsində Fransanın gördüyü işlərin, xərclədiyi paraların həcminə baxsaq hər şey məlum olar.

Bu gün Fransa Ermənistanın marionet, Putini həbs etmək üçün Roma statutunu ratifikasiya edən hakimiyyətini dəstəkləyir desək azdır, idarə edir. Ermənistan Parisə olan eşqindən o qədər feyziyyab olub ki, keçmişi kimi, hətta dilini də unudub. Monoetnik, ərazisində ermənidən başqa heç bir etnik qrupun yaşamadığı Ermənistan bu gün özünü fransızdilli ölkələrin - Frankofoniya Təşkilatının bir üzvü kimi təqdim edir. Yaltaqlığın da bir həddi olarmış.

Belə ki, Beynəlxalq Frankofoniya Təşkilatının baş katibi Luiza Muşikivabonun rəhbərlik etdiyi nümayəndə heyəti Qarabağdan köçən ermənilərlə həmrəy olduğunu bildirmək üçün Ermənistana gəlib. Biz səfərin təfərrüatlarına varmaq istəmirik. Düşünürük ki, təşkilatın baş katibi Ermənistana sırf siyasi sifarişlə göndərilib. Rəsmi Paris bununla 88 fransızdilli ölkənin onun bu siyasəti ilə həmrəy olduğunu nümayiş etdirmək istəyir. Amma bu hərəkəti ilə həm də özünü ifşa edir. Əslində Fransa dünyanın 5 qitəsində 88 müstəmləkəmiz var, bu ölkələrin xalqları bizim köləmizdir, deyir. Ermənistan da bu təşkilata yeni qoşulub. Əhalisinin cəmi 0,5 faizi fransız dilini yalnız lüğətdən oxuya bilən Ermənistan Frankofoniya Təşkilatına necə üzv qəbul edilib, hansı kriteriyalar əsasında, bəlli deyil. Luiza Muşikivabo bildirib ki, onlar BMT-nin bütün müzakirə və qətnamələrini izləyirlər. Baş katib təəssüflə qeyd edib ki, Beynəlxalq Frankofoniya Təşkilatının münaqişə ilə bağlı qərar qəbul etmək və ya mövqeyini bildirmək üçün mandat və resursları yoxdur. Əlbəttə, biz tarixi çox yaxşı bilirik, lakin biz öz mandatımızla məhdudlaşmışıq.

Ermənistanda isə daha maraqlı hadisələr yaşanır, Qarabağdan köçən 3000-dən çox erməni Ermənistanı tərk edib. Bunu baş nazir Nikol Paşinyan hökumətin iclasında da təsdiq edib. Paşinyan mövzu ilə bağlı nəticə çıxarmaq istəmədiyini, onların çoxunun qohumlarını görmək, onlarla vaxt keçirmək üçün getdiklərini deyib. Əslində isə, Qarabağdan ermənilərin təhriki ilə köçən ermənilər Paşinyan hakimiyyətinin, eyni zamanda, İrəvandakı ermənilərin tənələrindən qurtulmaq, ittihamlarından yaxa qurtarmaq, baş verən qanlı hadisələrin günahkarı kimi təqdim olunmaqdan, bir sözlə ayrı-seçkilkdən bezdikləri üçün Ermənistanda qalmaq istəmirlər. Ermənistandakı ermənilərin Qarabağdakı erməniləri özlərininkindən hesab etmədikləri yeni fakt deyil. Ona görə də Qarabağ erməniləri Ermənistanda qalmaq istəmirlər. Budur, ermənilərin milli siyasəti, Qarabağdakı ermənilərin İrəvan üçün bir vasitə olduqlarını yəqin ki, indi anlamış olarlar.

**Ardı Səh. 6**

# Neokolonizalizmin baş memarı




Əvvəli-Səh-5

### Olivierin Cermuk səfəri və Fransanın yeni koloniyaları

Fransanın Ermənistandakı səfiri Olivier Decotigny Avropa İttifaqının müşahidə missiyası ilə birlikdə Cermuka səfər edib. Və burada “Ermənistanın ərazilərinin bir hissəsinin Azərbaycan tərəfindən işğal olunduğuna şahidlik edib”. Görürsünüz, fransızlar nə ağıllıdırlar, bir səfərlə, bir baxışla bütün tarixi – çör-çöp yığan Müsyö Jordandan tutmuş indiyə qədər baş verənləri ortaya qoyurlar.

*Fransa etnik azlıqlar konsepsiyasını qəbul etmir. Bundan da irəli gedərək özünü Azərbaycandakı erməni milli azlığının müdafiəçisi kimi göstərir.*

”Neokolonializmi hələ də davam etdirən ölkələrdən biri Fransadır. Fransanın Avropadan kənarda idarə etdiyi ərazilər fransız müstəmləkə imperiyasının iyrənc qalıqlarıdır”. Bu sözləri Azərbaycan Prezidenti İlham Əliyev Qoşulmama Hərəkatının Əlaqələndirmə Bürosunun Bakıda keçirilən Nazirlər görüşündə söyləmişdi. Dövlətimizin başçısı bildirmişdi ki, Fransa Qəmər adalarının Mayot adası üzərində suverenliyinə, həmçinin Yeni Kaledoniya xalqının, o cümlədən özünün digər dənizaşırı icma və ərazilərində yaşayan xalqların hüquqlarına hörmət etməlidir.

Son antiterror tədbirlərindən sonra regionda tam yeni siyasi vəziyyət yaranıb. Keçmiş münaqişədən istifadə edilərək ölkəmizə qarşı istifadə olunan təzyiqlər aradan qalxıb və münaqişələrdən yararlanmağa çalışan qüvvələri çətin duruma salıb. Hazırda dünyada bir neçə münaqişə ocağı var və bu münaqişələrin heç biri lokal, yəni, təkcə iki ziddiyyətli yerli tərəfin iştirakı ilə aparılmır. Burada münaqişəyə öz maraqları çərçivəsində təsir edən qüvvələr də var. Fransa və bir sıra digər ölkələr öz siyasətləri ilə regiona və ölkələrə daha çox problemlər yaradırlar. Məhz buna görə də bu münaqişələr uzun müddət davam edir. Azərbaycanla Ermənistan arasında keçmiş Qarabağ münaqişəsini həll etmək üçün yaradılmış ATƏT-in Minsk qrupunun həmsədri olan Fransa problemin ölkəmizin ərazi bütövlüyü kontekstində həllini qəbul edə bilmir, çünki böyük təsir mexanizmi əllərində çıxıb. Ona görə də yeni təsir vasitələri yaratmağa çalışır, münaqişənin bitmədiyini göstərmək istəyir. Bunun üçün də Qarabağ ermənilərini alətə çevirmə istiqamətində addımlar atılır.

Fransa, ABŞ və digər bu kimi ölkələrin öz məqsədlərinə çatmaq üçün ədalətsiz qərarların qəbul olunmasında BMT-dən istifadə etməsi təəssüf doğurur. Həmin ölkələr bəşər tarixinə, insanlığa vurduqları ziyanı, həyata keçirdikləri milyonlarla insan qətllərini unutmasınlar. Dünyaya “insanlıq dərsi” keçmək istədiklərində özlərinin törətdiklərini xatırlayaraq hərəkət etsinlər. Afrikadan, Yaxın Şərqdən və Aralıq dənizi hövzəsində on illərdir taladığı xalqlar tərəfindən qovularaq çıxarılan Fransa Ermənistan vasitəsilə özünə Cənubi Qafqazda yer etmək, dünyada zəifləmiş nüfuzunu gücləndirmək istəyir. Fransanın belə hərəkətləri regionda sülhün yaranmasına deyil, münaqişənin davam etməsinə xidmət edir. Ermənistanı silahlandıracağını bəyan edən rəsmi Paris Cənubi Qafqaza xoş məqsədlərlə, iqtisadi, mədəni münasibətlərlə deyil, siyasi təxribatlarla daxil olmaq istəyir.




Regionda yaranmış yeni vəziyyətdə itirən tərəf Fransanın “kiçik bacısı” Ermənistan olacaq. Azərbaycan Fransanın ölkəmizə qarşı neokolonializm siyasəti aparmasına imkan verməyəcək. Fransada islamofobiyanın əhatə dairəsi və onun yayılmasının səbəbləri ilə bağlı müzakirələr intensivdir. Fransa neokolonializm ideyasına yenidən nəfəs verməyə çalışır. Tam əminliklə deyə bilərik ki, şəxsi maraqlar naminə Fransada demokratik ideyalar və ideallar, demokratik dövlət və təsisatlar astarının tikişləri cırılır. Müstəmləkə administrasiyası, müstəmləkə ideyasının institutlaşdırılması Fransanın tarixində qara ləkədir. Xarici deyil, məhz daxili amillər fransız millətçilərinin İslama qarşı mövqelərini dəyişməyə məcbur və sövq etməlidir. Yəni, Fransa özünü daxildən təmizləməlidir.

Fransanın siyasi leksikonunda islamofobiya anlayışı gündəngünə daha da möhkəmlənir. Hətta bu, Fransa əhalisinin bir hissəsi tərəfindən Fransa Respublikasının fundamental prinsiplərinin tanınmamasını ifadə edir və “paralel əks-cəmiyyət” yaradılması meyillərinin olduğu bildirilir. Neokolonializm doktrinasının çırağı olan Fransa müstəmləkə siyasətinə görə Avropadakı həmkarlarının liderliyini izləməyə meyilli olduğu qədər, həm də bu rəqabətdə liderdir. Fransa islamofobiyanı radikal siyasətin və sosial elitanın mərkəzində saxlayır, geniş əhali arasında yayır, xarici siyasətində dünyanı bölmək üçün hakim bir konsepsiya kimi islamofob toxumlar səpir. Makron hakimiyyətinin bildiyi ən yaxşı üsul budur.

Fransa neokolonializmi hələ də davam etdirən, müstəqil dövlətlərin daxili işlərinə kobud surətdə qarışan ölkə imicini israrla qoruyub saxlayır. Eyni zamanda bu ölkə ənənəvi vərdişlərindən hələ də əl çəkmir. Fransanın Avropadan kənarda idarə etdiyi ərazilər fransız müstəmləkə imperiyasının iyrənc qalıqlarıdır. Paris Qəmər adalarının Mayot adası üzərində suverenliyinə, həmçinin Yeni Kaledoniya xalqının, o cümlədən özünün digər dənizaşırı icma və ərazilərində yaşayan xalqların hüquqlarına və azadlıqlarına hörmət etmir. Bu ölkə müstəmləkə keçmişinə, qanlı cinayətlərinə, soyqırım aktlarına görə Qoşulmama Hərəkatına üzv olan Afrika, Cənub-Şərqi Asiya ölkələrindən və digər ölkələrdən üzr istəməlidir. Amma bunun fonunda Fransa hətta Korsika dilinə qadağa qoyur. Əli qanlı cinayətlərə batmış Fransa etnik azlıqlar konsepsiyasını qəbul etmir. Bundan da irəli gedərək özünü Azərbaycandakı erməni milli azlığının müdafiəçisi kimi göstərir.

Nəhayət, Fransa Azərbaycan torpaqlarında münaqişə yaranan gündən erməni separatizmini açıq dəstəkləyən ölkədir. Separatizm meyllərini illərdir silah-süngü gücünə yatırmağa çalışan Fransanın erməni separatçılarına sevgisinin, onun çiçəklənməsi üçün milyardlar xərcləmək həvəsinin arxasında nə dayanır? Yaxud, Fransanı ekstaza gətirən Ermənistanın nəyi və harasıdır? Cavablar çox maraqlı olardı...



**V.VƏLİYEV**

# Strasburqda yalan və uydurmalarını sırıyan MAHİR YALANÇI







***Strasburqda Ermənistanın baş naziri Nikol Paşinyanın dedikləri bir daha təsdiq etdi ki, rəsmi İrəvan üçün sülh danışıqları qətiyyən maraqlı deyil və hiyləgərliklə, yalan ifadələrlə hansısa görüntü yaratmaq, yaxud Azərbaycana qarşı mənfi rəy, fikir formalaşdırmaq ön planda durur. Təbii ki, erməni baş nazir üçün yalan danışmaq, uydurmalar səsləndirmək adi hal hesab olunduğundan onun ağlına gələni danışacağı da gözlənilən idi, amma məhz Strasburqda etdiyi çıxışı onun nə qədər yalançı olması ilə yanaşı, nə dərəcədə təxribatçı olduğunu da bir daha ortaya qoydu.***

Sözsüz ki, dünya ictimaiyyəti, beynəlxalq təşkilarlar və qurumlar Vovayeviçin necə yalançı olduğunu bizim bildiyimiz qədər bilməli idi, çünki onun bir-birini təkzib edən bəyanatları, yalan olduğu dəfələrlə təsdiq olunmuş ifadələri ortadadır. Amma Strasburqda onun sona qədər ağlına gələni danışması, yalan üzərində qurulan nitqlə çıxış etməsi və dinlənilməsi göstərir ki, hələ də onun mahir yalançı olduğu qənaətinə gəlməyənlər, reallıqlardan xəbərsiz olanlar var, əks halda nitqini yarımçıq qoyaraq bir sıra arqumentlərlə reallıqları üzünə vurardılar. Yaxud belə qənaətə gəlmək olur ki, onun yalanlarına qulaq asanlar ya təsir dairəsindədirlər, ya da bunu bilə-bilə edirlər. "Qarabağ Ermənistandır, nöqtə", deyən bu populistin sonra da, Qarabağ da daxil olmaqla, Azərbaycanın ərazi bütövlüyünü tanıması görünür, bəlkə heç də çoxlarını hələ Paşinyanın populizminin təsir dairəsindən çıxara bilməyib, amma gələk çoxdan onun illüziyalarının təsirindən çıxmalı idilər, çünki təkcə sadalanan faktlar bunun üçün kifayət idi. Görünür, hələ də bu yalanları eşitməyə "marağı olanlar" var və ona görə də təkzib etmək əvəzinə qulaqlarını şəkləyib dinləməli olurlar.

"Yalan ayaq tutub yeriməz", deyə düşündüyümüz halda, Paşinyan hələ də öz yalanlarını bunda maraqlı olan hansısa platformalarda "yeritmək" niyyətindən əl çəkmir. Bu avantürist bir tərəfdən Azərbaycanın ərazi bütövlüyünü tanıdığı barədə bəyanat verir, digər tərəfdən də bizə məxsus olan 8 kəndi hələ də işğal altında saxlayır və işğaldan əl çəkmək niyyətində də görünmür. Maraqlıdır ki, Strasburqda bunu ondan soruşan olmadı. Soruşan olmadı ki, bu yalanlarla niyə hamını aldatmaq fikrindədir və Strasburqa kimi axmaq, avam yerinə qoymaq üçün gəlib? Dediklərinin bir təxribat olduğu da ona xatırladılmalı olduğu halda, bunu da müşahidə etmədik. Müşahidə etdiyimiz o oldu ki, mahir bir yalançının çox əminliklə öz uydurmalarını sırıdığı kimi, Nikol Paşinyanın da təxribat xarakterli, yalanlarla, uydurmalarla dolu absurd bəyanatları Avropa Parlamentinin divarları arasında maneəsiz olaraq səsləndi.



Hansısa məqamdan avantüristcəsinə istifadə etməyi bacaran Paşinyan məhz Azərbaycanla münasibətlərinin guya müzakirəsi fonunda bu dəfə Strasburqda həyasızcasına Rusiyanı da hədəfə aldı ki, kimlərinsə "könlünü görsün" və bundan da yararlanaraq yalanına maneəsiz şəkildə davam etsin. "Rusiya sülhməramlılarının hərəkətsizliyi ermənilərin Azərbaycanın Qarabağ bölgəsində öz evlərini itirməsinə səbəb olub və onlar geri qayıtmaq imkanından məhrum olublar", deyən erməni baş nazirin bu yalanı danışarkən nə qədər həyasızlıq etdiyi bizim hamımıza bəllidir və istərdik ki, elə Strasburqda bunu dinləyənlərə də bəlli olaydı. Əvvəla, ondan soruşmaq lazım idi ki, öz evləri dedikdə Nikol hansı evləri nəzərdə tuturdu, yoxsa ötən əsrin sonlarında erməni silahlı birləşmələrinin törətdikləri soyqırımlar, vəhşiliklər, təhdidlər fonunda məcburiyyət qarşısında qalaraq azərbaycanlıların tərk etdikləri evlərdən söhbət gedir? Axı həmin evlər ermənilərin deyildi. Soruşmaq lazım idi ki, ümumiyyətlə, ermənilərin nəyi var idi ki, onu da tərk etsinlər? Torpaqlar onlara məxsus deyildisə, evlər onların deyildisə, onlar heç nəyi tərk etməyiblər və köçəri xalq kimi ənənələrinə uyğun olaraq, bir ərazidən digərinə köçüblər, hansıki burada kiminsə xoşuna gəlsin deyə rusları, Rusiyanı günahkar göstərmək özü təkcə mahir yalançılıq yox, həddən artıq həyasızlıqdır. Bu həyasızlıq bir manipulyator, bir avantürist üçün sıradan bir addım, adi hal sayıla bilər və başadüşüləndir, amma buna Strasburqda reaksiya verilməməsi heç başadüşülən deyil.

Ermənilərin Azərbaycanın Qarabağ bölgəsinə geri qayıtmaq imkanından məhrum edildiyi barədə Strasburqda həqiqətə uyğun olmayan fikirlər səsləndirərkən, yalan danışarkən, işğalçı ölkənin baş naziri rəsmi Bakının qətiyyən belə bir niyyətdə olmadığını bilmirdimi? Bilirdi. Bilirdi ki, Qarabağ ermənilərinin qayıdışına da, təhlükəsizliyinə də, Konstitusiyamızda nəzərdə tutulmuş bütün vətəndaş hüquqlarına da Azərbaycan tərəfi zəmanət verir. Bəlkə Strasburqda Paşinyanın yalanlarını dinləyənlər bilmirdilər? Axı onlar bilməli idilər ki, rəsmi Bakı reinteqasiya ilə bağlı dəfələrlə təşəbbüslər edib. Bilməli idilər və hətta bilirdilər ki, onlarla görüşlər belə təşkil edilib və Azərbaycan vətəndaşlığını qəbul edərək, ərazilərimizdə məskunlaşmaları, yaşamaları təkilifi edilib. Belə olan halda, nəyə görə bir avantüristə yalan danışdığı yerindəcə bildirilməyib? Axı bunu bildirmək üçün yetərincə faktlar, arqumentlər var və bu faktlar, arqumentlər heç də dünya ictimaiyyəti üçün sirr deyil.

Azərbaycanın Qarabağ iqtisadi rayonunda terrorla mübarizə tədbirləri başa çatdıqdan sonra Nikol Paşinyanın məhz həmin ərazilərdə yaşayan ermənilərlə bağlı dedikləri ilə sonradan işlətdiyi ifadələr qətiyyən üst-üstə düşmür və deməli, belə çıxır ki, erməni baş nazir yalan danışır. "Hazırda bizim qiymətləndirməmiz ondan ibarətdir ki, Qarabağın mülki əhalisi üçün birbaşa təhlükə yoxdur", deyə videomüraciətində bildirən Paşinyanın sonradan, Azərbaycanın sentyabrın 19-da və 20-də guya "etnik təmizləmə" həyata keçirdiyini iddia etməsi qətiyyən üst-üstə düşmür. Ən təəccüblüsü isə bu iddianı həmin o mahir yalançının məhz Avropa Parlamentində də səsləndirməsidir. Axı fikirlərin bu boyda, bu qədər təzadlı olduğunu görməmək, bir ölkə liderinin həyasızcasına yalana əl atdığının fərqində olmamaq qətiyyən mümkün deyil. Maraqlıdır ki, qondarma və dırnaqarası "etnik təmizləmə" həyata keçirildiyi Paşinyan tərəfindən iddia edilərkən ona, bir qədər əvvəl, "Qarabağın mülki əhalisi üçün birbaşa təhlükə yoxdur", deməsi nəyə görəsə xatırladılmayıb. Amma bunun xatırladılması tamamilə yerinə düşərdi və bu səbəbdən də xatırladılmayan həmin o məqamın xatırladılmasını vacib hesab etdik deyə, bunlara toxunulmasını, diqqətə çatdırmasını lazım bildik.

Danışdığı yalanlar sırasında Nikol Paşinyan sərhədlərlə bağlı da həqiqətə uyğun olmayan fikirlər səsləndirib. Kobud şəkildə desək, tamamilə ağ yalan danışıb. Azərbaycan Silahlı Qüvvələrinin Ermənistanın sərhədlərini pozaraq onun suveren ərazisinə daxil olması ilə bağlı yalan danışaraq saxta ittihamlarla çıxış edən erməni baş nazir yaxşı bilir ki, Azərbaycan Prezidenti cənab İlham Əliyev tərəfindən onun dedikləri artıq təkzib olunub. "Sərhəd iddia etdikləri yerdə olsaydı, orada sərhəd xətləri, kommunikasiyalar qurar, mühəndis işləri aparardılar. Onlar inanırdılar ki, bütün Qarabağ və Zəngəzur onların nəzarətində qalacaq, ona görə də Azərbaycan-Ermənistan sərhədində heç bir iş görməyiblər", deyə bəyan edən Azərbaycan Prezidenti bununla Ermənistan ərazisinə müdaxilə ittihamlarının tamamilə "əsassız" olduğunu artıq sübut edib. "Biz müzakirələrə hazırıq və delimitasiya komissiyalarının işinə məsuliyyətlə yanaşırıq. Bütün xəritələr, o cümlədən 19-cu, 20-ci əsrlərə və daha əvvəlki dövrlərə aid xəritələr toplanıb. Bu xəritələr kimin hansı torpaqda olduğunu aydın şəkildə göstərir. Delimitasiya olmadan heç kim bizi heç nədə ittiham edə bilməz", deyən ölkə rəhbərimiz sentyabrın 21-də işğaldan azad edilmiş Laçını ziyarət etdiyi zaman orada bildirib ki, iki ölkə arasında sərhəd delimitasiyası aparılmadan onun dəqiq harada yerləşməsi barədə heç kim danışa bilməz.

Sadalanan həqiqətlər, reallıqlar, fakt və arqumentlərin fonunda Ermənistanın baş nazirinin yalan danışması, absurd fikirlər səsləndirməsi, cəfəngiyyat dolu sözlər işlətməsi onun yalançı olduğunu sübut erməklə yanaşı, həm də məsələnin həllinə çalışmadığını, əksinə, təxribatlara rəvac vermək niyyətində olduğunu göstərir. Bu həm də onu göstərir ki, Nikol Paşinyan qətiyyən sülh danışıqları barədə düşünmək belə istəmir, baxmayaraq ki, bu barədə də yalandan fikirlər səsləndirib və iddialarla çıxış edib. Öz ölkəsini guya sülh tərəfdarı kimi, humanist tərəf kimi göstərməyə çalışan bu mahir yalançı çətin unuda bilər ki, 44 günlük müharibə zamanı, 2020-ci il oktyabrın 17-nə keçən gecə döyüş bölgəsindən kənarda olan və ölkəmizin ikinci böyük şəhəri sayılan Gəncəyə erməni quldur dəstələri ballistik raketlər atıblar. Beşi uşaq və dördü qadın olmaqla 15 mülki şəxsin həlak olduğu, dördü azyaşlı və iyirmisi qadın olmaqla 48 nəfərin yaralandığı bu faciənin kim tərəfindən, kimin əmri ilə, eləcədə də kimin tapşırığı və razılığı ilə törədildiyi də bəllidir. Gəncənin atəşə tutulması əmrinin şəxsən özü tərəfindən verildiyini etiraf edən Arayik Arutyunyanın erməni baş nazir Paşinyanın marioneti olduğu da bəllidir və öz əmri, öz tapşırığı ilə belə bir müharibə cinayətlərinə əl atılması, buna rəvac verilməsi fonunda sülhdən, humanizmdən dəm vurmaq, danışmaq ağ yalandır və bu fakt həmin o mahir yalançının nə dərəcədə həyasızlıq etdiyini bir daha təsdiq edir, hansıki bu yalançılıq ənənəsinə də, həyasız xislətinə də hər kəs bələddir. Amma təəccüb və təəssüf doğuran odur ki, onun belə yalanlar danışdığı zaman ona reallıqlar, həqiqətlər, faktlar və arqumentlər barədə bildirilərək sağlam, dürüst bir mövqe ortalığa qoyulmayıb və daha boyük yalanlara hələ bundan sonra da əl atmasına şərait yaradılıb.

Ermənistana məxsus mətbuat səhifələrində qeyd olunur ki, Strasburqda erməni baş nazir Nikol Paşinyanın ünvanına təriflər eşidilir, Ermənistan da Avropa İttifaqının Şərq Tərəfdaşlığı çərçivəsində "ən yaxşı tərəfdaş" adlandırılır. Amma onu qeyd etməyi unudurlar ki, Strasburqdakılar, ilk növbədə, bu mahir yalançının yalanlarına qulaqlarını şəkləyərək, daha dorusu, qulaqlarını sallayaraq qulaq asmağı, aldanmağı, üstəlik, tərif də yağdırmağı başqalarına yox, özlərinə rəva bilirlər. Üstəlik, onu da qeyd etməyi unudurlar ki, qonşu dövlətin ərazisinin 20%-ni otuz ildən artıq işğal altında saxlayan, həmin əraziləri otuz il ərzində xarabalığa çevirən bir ölkəni özlərinə "ən yaxşı tərəfdaş" adlandıranlar işğalçı dövləti özlərinə, özlərini də ona münasib bilirlər. Amma unutmaq lazım deyil ki, yalanlara, işğal faktına belə göz yumanlar bunun onların imicinə nə dərəcədə mənfi təsir göstərdiyini nəzərə almalıdırlar. Nəzərə almalıdırlar ki, həmin o mahir yalançı öz ağ yalanları, uydurmaları ilə elə bil Strasburqakıları axmaq və avam yerinə qoymaq üçün yollanıbmış. Əgər kimlərsə həmin o yalanlara inanıblarsa, yaxud da mahir yalançının dedikləri ilə razılaşıblarsa, deməli, həqiqətən də axmaq və avam yerinə qoyulublar. Ən azından, başda elə erməni baş nazir özü olmaqla, indi bütün ermənilər düşünürlər ki, həmin o mahir yalançı, yəni Nikol Paşinyan Strasburqda yalan və uydurmalarını oradakılara sırıyıb.

***İnam Hacıyev***

# QARABAĞ: Məqsədyönlü siyasətin nəticəsi

***Hər bir ölkə vətəndaşı şüurlu şəkildə dərk edir ki, Qarabağ illərlə həyata keçirilən məqsədyönlü siyasət nəticəsində işğaldan azad edildi. Dünyagörüşündən, təhsilindən, məşğuliyyətindən asılı olmayaraq hər kəsə o da gün kimi aydındır ki, Qarabağ birdən-birə işğaldan azad edilə bilməzdi, buna zaman lazım idi.***



Düşünürəm ki, ölkədə Əli Kərimli və onun kimi 2-3 nəfərdən başqa hər kəs bunu belə düşünür. Çünki bu, uzaq keçmiş deyil ki, Əli Kərimli insanlara moizə oxuya: 30 il əvvəl nə olub, 30 ildəki 10 ildə nə olub, 20 ildə nə olub. Bu, cəmi 30 illik bir tarixdir. Bu tarixi də biz orta yaş qrupunda olanların hər biri yaşamışıq. Hər ilinə, hər gününə, hər anına şahid olmuşuq.

Əli Kərimlinin sözü bitib, ta bilmir nəyin ucundan, qulpundan yapışsın. Gündəmdə qalmaq üçün ağlına gələni danışır: Qarabağın azad olunması həqiqətənmi məqsədyönlü siyasətin nəticəsidir, yoxsa beynəlxalq şərtlərin dəyişməsi bu hərbi uğura əsas yaradıb?

### Çox gülüncdür

Həqiqətən, çox gülüncdür. Böyük bir Zəfərin fonunda bu cür lüzumsuz söhbəti etmək həqiqətən utandırıcıdır. Əli Kərimli kimə verir bu sualı, kimdən cavab almaq istəyir. Axı haqqında danışdığı 30 ili ölkə vətəndaşları burada-Azərbaycanda yaşayıb, xaricə qaçan, gizlənən olmayıb aramızda. Qəflət yuxusuna getməmişdik, ölkədə baş verən hadisələri izləyə-izləyə, yaşaya-yaşaya 30 ilin əvvəlindən gəlib 30 ilin sonuna çatmışıq. Lakin bütün bu danışılanlar uşağı yuxuya vermək üçün uydurulan nağıllara bənzəyir. Odur ki, elə uşaqlarımızın bilməsi üçün Əli Kərimli nağılına münasibət bildirmək istədim. Çünki onlar həmin dövrləri görməyib. Biz görmüşük, gənc nəsli də biz məlumatlandırmalıyıq.

### Gənc nəslə

Azərbaycan 30 il öncə sovet imperiyasının itaət zəncirlərində inləyən 15 müttəfiqdən biri idi. Ölkə iqtisadiyyatı 70 il elə sistemləşdirilmişdi ki, bizim kimi, o da müstəqil deyildi, asılı idi. Elə 30 il əvvəlində imperiyanın buxovundan canımızı qurtarıb müstəqil olmaq istədiyimiz zamanda ölkə güclü iqtisadi sarsıntı ilə üz-üzə qaldı. Biz çörək tapmırdıq, evlərimiz buz kimi olurdu. Günlərimiz çörək, ərzaq növbələrində keçirdi. Çıraq işığında oturmalı olurduq.

Elə bu vaxtlar Əli Kərimli sələfləri hakimiyyətə gəldi. Düzdür, hakimiyyətləri qısa bir zamanı əhatə etdi, çünki bacarmadılar. Azərbaycan tarixində hələ belə gülünc hakimiyyət olmamışdı. Elə torpaqlarımızın da başına nə gəldisə, həmin vaxt gəldi. Satılan satıldı, vədi verilən verildi. Sonrakı illərdə bir-bir işğal olundular. Çünki onların işğalı üçün səmərəli şərait yaradılmışdı.

### Hakimiyyətdə hakimiyyətsizlik

1990-cı ildə ölkə hakimiyyətində, sözün həqiqi mənasında, hakimiyyətsizlik hökm sürürdü. Özbaşınalıq o yerə gəlib çatdı ki, Azərbaycandan üreyidağlı olan sovet ordusu Bakıya girib 20 Yanvar hadisəsini törətdi. Kim idi onlara qapıları açan? Kim idi sovet imperiyasının başına sığal çəkən? Hakimiyyət üçün xalqını qırğına verən?

Bəs o şəxs kim idi ki, məhz 20 Yanvar hadisəsindən sonra Moskvada tutduğu yüksək vəzifədən istefa verib Vətənə qayıdan? Kim idi? Ümummilli Lider Heydər Əliyev idi. Bəs Ulu Öndərin Bakıya gəlməsini, Onun olduğu təyyarənin Bakıya enməsini əngəlləyən kim idi?

Əli Kərimli, o zaman kim bilərdi ki, Ulu Öndər Azərbaycanda ikinci dəfə hakimiyyətə gələcək, Prezident olacaq? Kimlərinsə satdığı torpaqların nə üçün 10 ildə geri qaytarılmadığı bu gün sizin müzakirə mövzunuz olacaq. Bəs siz bir siyasətçi olaraq Azərbaycanın fəxri, ağsaqqalı olan bu şəxsiyyəti Bakıya gəlməyə qoymayanlar haqqında nə yaxşı müzakirə aparmadınız? Nə üçün bu hərəkəti törədənləri heç ittiham etmədiniz?

### Arxiv var, orada yazılı tarix var

Ulu Öndər Naxçıvana getməli, orada işləməli olanda, naxçıvanlıları aclıq və səfalətdən öz şəxsi nüfuzu ilə xilas edəndə, Türkiyə və İranla bununla bağlı danışıqlar aparanda nə yaxşı bu barədə bir dəfə söhbət açmadınız? Azərbaycanın böyük bir hissəsinə-Naxçıvana rəhbərlik edən şəxsiyyət qonşu ölkələrə üz tutub insanları sadəcə çörəklə təmin etmək üçün xahiş edirdi.

Sizin sələfləriniz nə edirdi? Onun Naxçıvanda həyatını təhdid etməyə başlamışdılar. Bütün bunlar faktdır. Həm də yazılı faktdır. Naxçıvanda "Şərq qapısı" qəzeti nəşr olunur. Onun arxivindədir bu faktların hər biri. Naxçıvan blokadasını araşdıran bir jurnalist kimi bunların hər birinə o qəzetin səhifələrində rast gəlmişəm.

Əli Kərimli, Azərbaycan 90-cı illərdə yenicə müharibədən çıxmış bir ölkə idi. Sayənizdə minlərlə şəhid vermişdi. Ordusu belə yox idi bu dövlətin. 70 il ərzində azərbaycanlı oğullar Rusiyaya əsgəri xidmətə gedirdi, onlar fəhlə batalyonlarına salınırdı. Nə üçün, bilirsinizmi? Bilməmiş olmazsınız. İlk ordu Ulu Öndər tərəfindən Naxçıvanda yaradılmağa başlanmışdı. O da Naxçıvanı ermənilərdən müdafiə edirdi. Yoxsa indi siz Qarabağ azad olunandan sonra deyirdiniz ki, bəs Naxçıvan?

Niyə illərlə heç onu bicə dəfə də müzakirə etmədiniz ki, 1991-ci ildə müstəqilliyini elan etməsinə baxmayaraq ölkədə SSRİ-nin tərkibində qalmaq üçün referendum keçirilirdi, lakin bunu Ulu Öndər Heydər Əliyev rədd etmişdi, Naxçıvan bunun əleyhinə çıxmışdı.

### Çörək növbəsindən müharibəyəmi?

1993-cü ildə Ulu Öndər Heydər Əliyev Azərbaycanda ikinci dəfə hakimiyyətə gəldi. Həm də xalqın təkidi ilə. Xalq gördü ki, sizlərdən onlara haray yoxdur, üz tutdu bir vaxt sizin Bakıya gəlməsinə əngəl yaratdığınız, bu səbəbdən də doğulduğu torpağa gedən Heydər Əliyevə. Heydər Əliyev bu xalq üçün hakimiyyətə gəldi. Bu xalqı xilas etmək üçün. Yoxsa ermənilər havadarlarının dəstəyi ilə Bakıya qədər gəlib çıxacaqdılar.

Heydər Əliyev hakimiyyətə gələndə ölkədə vəziyyət necə idi ki, hələ üstəlik bir torpaqları da ala bilərdik. Əhalisi çörək növbələrində, ərzaq talonu əllərində mağazaların qarşısında sıraya düzülən, iqtisadiyyatı süqut etmiş, ordusu olmayan bir ölkə özünü müdafiəyə, torpaq azad etməyə necə başlaya bilərdi? Axı bütün bunları bir siyasətçi kimi siz yaxşı bilirsiniz. Bəs nə üçün əsassız söhbətlər açıb ürək bulandırırsınız?

Ulu Öndər dağılmış, məhv olmuş Azərbaycanın qalıqları üzərində yeni bir Azərbaycan qurmağa başladı. Axı bunları gözlərimizlə görmüşük, saatbasaat, anbaan yaşamışıq. Biz 1993-2003-cü illər ərzində necə müharibə edə bilərdik? Hələ 1994-cü ildə neft kontraktı yenicə bağlanmışdı. Bunun bəhrəsi olmadan biz necə müharibə edərdik? Hansı gücümüzlə, hansı ordumuzla?.. Edərdik, bəlkə də, lakin böyük itkilərlə. Çünki ordumuz, silah-sursatımız yox idi. Ermənistanın arxasında kimlərin durduğu, ermənilərin Qarabağda 13 ildə yığdığı texnika, yaratdığı beton istehkamlar isə axı sizə də məlumdur.

Ulu Öndər bütün hakimiyyəti boyu "Azərbaycanın ərazi bütövlüyü təmin edilməlidir" dedi,



bunun üçün ilkin addımları atdı, lakin ömür öz əlimizdə deyil ki...

### Məqsədyönlü siyasət

2003-cü ildə cənab İlham Əliyev ölkə başçısı seçildi. Qarabağın azad edilməsi həm bir ata vəsiyyəti, həm də fəaliyyətin məqsədi olaraq ortaya qoyuldu. İllərlə bu sahədə işlər aparıldı. İllərlə Prezidentin xalqa bütün müraciətlərində, beynəlxalq tribunalardan etdiyi çıxışlarda, hətta doğum gününü məcburi köçkünlərlə, şəhid ailələri ilə qeyd edərkən onlarla söhbətlərində Qarabağın azad ediləcəyindən, sülh yolu ilə qaytarılmasına çalışdığından bəhs etdiyini eşitdik. Dünyanı ilahi ədalətə çağırdı. Və onu da dəfələrlə dedi ki, Qarabağ sülh yolu ilə azad olunmasa, onu hərb yolu ilə azad edəcəyik.

Müharibə etmək heç də asan deyil, Əli Kərimli. Müharibə ya qələbə, ya da uduzmaq deməkdir. Hələ üstəlik müharibəni başlayan dövlət olaraq məsuliyyət daha artıq olur. Çünki başladığın müharibənin nəticəsi uduzmaq olarsa, bu nə deməkdir, anlayırsınızmı?

Dünyada nüfuz sahibi olarsansa, müharibəni qazana bilərsən, qonşu dövlətlərlə münasibət yarada bilərsənsə, uğur sənin ola bilər. Axı siz bunları bilməmiş deyilsiniz. Bəs bu münasibətləri yaratmaq üçün illərə ehtiyac yox idi? Yenəmi uduzmağımızı, minlərlə itki verib, əvəzində torpaqlarımızı geri ala bilməməyimizi istəyirdiniz? Belə deyilsə, 20 ilin o başında, yaxud da bu başında Qarabağın azad olunmasından danışmağı necə özünüzə rəva bilirsiniz?

Hərbi uğura səbəb kimi izahını belə verə bilmədiyiniz beynəlxalq şərtlərin dəyişməsini qeyd edirsiniz. Biz müstəqil dövlətik, dünyada da nüfuzumuz var. Bu ölkənin sərvətləri hər bir dünya dövlətini bizimlə dost münasibətdə qalmağa vadar edir. Biz hər hansı daxili məsələmizi onlarla məsləhətləşmirik.

### Yaxşı ataların yaxşı övladları

Əli Kərimli, yaxşı ataların yaxşı oğulları olur, bilirsinizmi? Yaxşı atalar Vətənin dar günündə övladlarını xaricə qaçırmır, ölkənin taleyini həll etməyi ona həvalə edir. Ulu Öndər də özünün dediyi kimi, başa çatdıra bilmədiyi işləri mənəvi varisinə həvalə etdi. Nəticə isə göz önündədir. Azərbaycan xalqı Zəfər əldə edib. Namus və şərəf məsələsini həll edib. Ta Qarabağdan söz düşəndə başımızı aşağı dikmirik. Düzdür, siz bu Zəfərin yalnız əsgər və zabitlərimizə məxsus olduğunu deyirsiniz. Söz yox, əlbəttə, Prezidentimizin də vurğuladığı kimi, Qarabağ Zəfərini Azərbaycan xalqlı, əsgər və zabitləri qazanıb. Lakin gəlin bir məsələni də unutmayaq ki, tarixdə sərkərdəsiz ordunun olması görülməyib.

### Cümhuriyyət dövründən başlayın

Əli Kərimli, siz ki, belə torpaq qədri bilənsiniz, Qarabağın azadlığının 20 ilin əvvəlində olmalı olduğunu düşünənsiniz, onda siz bir qayıdın ən azından cümhuriyyət dövrünə. O vaxtdan bəri ermənilərə verilən, hədiyyə olunan torpaqların kimlə bağlı olduğunu da müzakirə edin, onları ittiham edin. Onda deyək ki, hə, bu insanlar həqiqətən də torpaq sevdalılarıdır. Hansı ki, o torpaqların verilməsi ilə Naxçıvan illərdir ki, blokada şəraitində yaşayır. Dövlətimizin başçısı isə bu gün o yolun açılması üçün mübarizə aparır. O torpaqların vaxtilə itirilməsi Qarabağ probleminin yaranmasına səbəb olub.

Nə üçün məhz 30 il? Nə üçün bütün müzakirələriniz 30 il üzərində qurulub? Çünki bu 30 il sizin o gözünüz qalan hakimiyyət illəri ilə yaşıddır. Siz təbii ki, 270 ildən artıq bir dövrdə Azərbaycanda torpaq geri almaq məsələsindən deyil, məhz bu 30 ildən yapışacaqsınız. Çünki siz 30 il əvvəl hakimiyyətdən qoparıb tarixin arxivinə atılmısınız. Bacarmadınız, bunu nə üçün etiraf etmək istəmirsiniz? Bu xalqın sizinlə düşmənçiliyi yox idi ki... Görsəbə, Zəfər bəxtəbəxt söhbəti deyil, siyasətdir.

Nə yaxşı ki, bütün bunlar gözlərimiz önündə yaşanıb. Yoxsa bu günün gəncləri, uşaqları kimi deyərdik ki, görəsən bunlar nə danışır? Doğru nədir, yalan nə?

Elə həmin gənc və uşaqların xətrinə də səhərdən bəri danışmalı oldum ki, onlar tarixi düzgün anlaya, doğru qiymət verə bilsinlər. Sizə isə sözümün sonunda onu demək istəyirəm ki, hər hansı bir sərkərdə qarşısına məqsəd qoymasa, ona nail ola bilməz. Bu müharibə, Zəfər bəxtəbəxt söhbəti deyil, siyasətdir.

***Mətanət Məmmədova***

TƏHLİL-ANALİZ

# İşıqlı sabahımız

TƏHLİL

**Dövlət başçısının Sərəncamı ilə ən yüksək nəticələr göstərmiş tələbələrə Prezident təqaüdü veriləcək.**



Müasir Azərbaycan gəncliyi yaşadığımız zamanın ən məsuliyyətli bir dövrünü yaşayır. Qloballaşmanın vüsət aldığı və informasiya cəmiyyətinin sürətlə inkişafda olduğu bir zamanda müasir zamanın çağırışlarına cavab vermək gənclərdən böyük məsuliyyət tələb edir. Azərbaycan bayrağına bağlı olan gənclik respublikamızda sosial-iqtisadi, elmi-mədəni, təhsil və digər sahələrdə fəal iştirak edir və hər bir sahədə izi, əməlləri görünür. Deməli, işıqlı sabahımızın gəncliyi fəal gənclikdir, yeniliyə meyl edən gənclikdir. Əlbəttə ki, müasir gəncliyin dövlətin diqqət və qayğısı ilə əhatə olunması onların bütün potensialarından düzgün istiqamətdə istifadəsinə imkanlar açır. Prezident İlham Əliyevin son 20 ildə Azərbaycanda gənclərlə işin inkişaf etdirilməsi ilə bağlı verdiyi göstəriş və sərəncamlar sözügedən təbəqənin öz üzərinə düşən məsuliyyəti daha dərindən dərk etməsinə əhəmiyyətli təsir göstərir. "2023–2024-cü tədris ilində Azərbaycan Respublikasının ali məktəblərinə daxil olmuş tələbələrə Prezident təqaüdünün verilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 18 oktyabr tarixli Sərəncamı təhsilə və gənclərə ayrılan diqqətin davamıdır. Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasının ali məktəb tələbələri üçün Prezident təqaüdünün təsis edilməsi haqqında" 2001-ci il 3 sentyabr tarixli 564 nömrəli Fərmanına uyğun olaraq 2023–2024-cü tədris ilində tələbə qəbulu imtahanlarında ixtisas qrupları üzrə ən yüksək nəticələr göstərmiş və Azərbaycan Respublikasının ali məktəblərinə daxil olmuş tələbələrə Prezident təqaüdü veriləcəkdir. Xatırladaq ki, Azərbaycan Prezidenti İlham Əliyevin gənclərə dəstək yönündə verdiyi mühüm və əlamətdar qərarlardan biri də 2013-cü il 2 iyul tarixində ölkədə ilk dəfə "Gənclər üçün Prezident Mükafatı"nın təsis edilməsi oldu. Prezident Mükafatı elm, mədəniyyət, o cümlədən ədəbiyyat və incəsənət, təhsil, gənclər siyasəti və gənclərlə iş, ictimai və sosialyönümlü fəaliyyət, innovasiya və sahibkarlıq fəaliyyəti sahələrində xüsusi fərqlənən 10 nəfər gəncə ildə bir dəfə verilir.

Onu da bildirək ki, ölkə Prezidenti cənab İlham Əliyevin müvafiq Sərəncamı ilə dövlət büdcəsinin vəsaiti hesabına doktorantlara, ali təhsil, orta ixtisas və peşə təhsili müəssisələrində, həmçinin Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində təhsil alan tələbələrə verilən təqaüdlərin məbləğləri 2023-cü il yanvarın 1-dən artırılıb.

## AZƏRBAYCANÇILIQ VƏ DÖVLƏTÇİLİK PRİNSİPLƏRİNƏ SADİQLİK

Yeri gəlmişkən onu da bildirək ki, 1996-cı il 22 iyun tarixində Ulu Öndər Heydər Əliyevin imzaladığı Fərmanla elmi və mədəni tərəqqinin müstəqil Azərbaycanın gələcəyi üçün müstəsna əhəmiyyətini nəzərə alaraq istedadlı gənclərə Azərbaycan Respublikası Prezidentinin şəxsi himayəsini, onların yaradıcılıq potensialını inkişaf etdirmək üçün dövlət qayğısını təmin etmək məqsədilə Azərbaycanın gənc istedadlarının "Qızıl kitabı" və "Qızıl kitab"a adları yazılmış gənc istedadlara təqdim etmək üçün xüsusi təqaüd təsis edilib.

Ulu Öndər Heydər Əliyevin siyasi kursunu uğurla davam etdirən Azərbaycan Prezidenti İlham Əliyev gənclərin vətənpərvərlik, azərbaycançılıq və dövlətçilik prinsipləri əsasında tarixi-mədəni irsimizə, milli-mənəvi və ümumbəşəri dəyərlərə hörmət ruhunda tərbiyə olunması, cəmiyyətin ictimai-siyasi, sosial-iqtisadi və mədəni həyatında onların intellektual və yaradıcı potensiallarının ümummilli məsələlərin həllinə yönəldilməsi istiqamətində ardıcıl tədbirlər həyata keçirir.

Bu gün tam əminliklə deyə bilərik ki, müstəqil Azərbaycanda dövlətin diqqət və qayğısı sayəsində sağlam bir gənclik yetişib. "2007-2015-ci illərdə Azərbaycan Gənclərinin təhsili üzrə Dövlət Proqramı" gənclərin təhsil səviyyəsinin yüksəldilməsinin daha bir ifadəsidir. Prezident İlham Əliyevin 15 sentyabr 2017-ci il tarixli Sərəncamı ilə növbəti "Azərbaycan gəncliyi 2017-2021-ci illərdə" Dövlət Proqramının təsdiq edilməsi gənclərə olan qayğının bariz nümunəsidir. Prezident İlham Əliyev gənclərin dövlət idarəçiliyi sistemində iştirakının gerçəkləşdirilməsi, onların potensialından düzgün istifadə məqsədilə 2005-ci il avqustun 30-da "Azərbaycan Gəncliyi Dövlət Proqramı"nı (2005-2009-cu illər) təsdiq etdi ki, bu da gənclərə dövlət qayğısının artırılmasını təmin etmiş oldu.

## YENİ NƏSİLDƏ FƏAL VƏTƏNDAŞLIQ MÖVQEYİ

Azərbaycan gəncliyi Dövlət Proqramlarının davamı olaraq ölkə başçısının 26 yanvar 2015-ci il tarixli Sərəncamı ilə "2015-2025-ci illərdə Azərbaycan gənclərinin İnkişaf Strategiyası"nı təsdiq etdi. Sərəncama əsasən, Azərbaycan gəncliyinin potensialını müasir dövrün tələblərinə uyğun inkişaf etdirilir, həmin potensialdan Azərbaycan Respublikasının mənafeləri naminə istifadə edilərək, yeni nəsildə fəal vətəndaşlıq mövqeyi formalaşdırılır. Azərbaycanın qısa müddətdə iqtisadi, sosial sahədə əldə etdiyi uğurları müəyyənləşdirilmiş düzgün siyasət və strategiyanın uğurlu addımları kimi dəyərləndirən gənclər dövlətin onlara göstərdiyi diqqəti əməli fəaliyyətləri ilə doğrultmaqla, əsl vətəndaşlıq məsuliyyətlərini ölkənin ictimai-siyasi həyatında tutduqları sağlam mövqe ilə təsdiqləyirlər. Bu gün təqdirəlayiq hal isə odur ki, gənclər də dövlət tərəfindən onlara göstərilən diqqət və qayğını, onlara olan etimadı yüksək qiymətləndirərək var qüvvələri ilə çalışır, ölkənin inkişafı naminə öz töhfələrini verirlər.

**Nəzakət ƏLƏDDİNQIZI**

***Qərbi Azərbaycanlı Gözəl Abdullayevanın SİA-ya müsahibəsini təqdim edirik:***



# "Ermənilər göz görə-görə övladımı öldürdülər"

***- Bizə bir az özünüz barədə danışın...***

- Mən 1952-ci ildə Qərbi Azərbaycan, yəni indiki Ermənistan ərazisində anadan olmuşam. Orada ilk olaraq ermənilərin çox olduğu qəsəbədə yaşayırdıq. Daha sonra atam Allahverdi rayonunun Ayrım kəndində ev tikdi və biz ora köçdük. Həmin kənddə heç bir erməni yaşamırdı. Mən 1972-ci ildə orta məktəbi bitirdikdən sonra kənddən çıxmışam. Məndən sonra qardaşım və bacım da kəndi tərk etmişdilər. 1988-ci ilədək tətillərdə ata-anamızın yanına kəndə gedirdik.

***- Gözəl xanım, müəyyən bir yaşa kimi Qərbi Azərbaycanda yaşamısınız. Ermənilər sizinlə necə rəftar edirdilər?***

- Onlar bizə həmişə türki molla deyirdilər. Bizi bir dəfə belə azərbaycanlı deyə çağırmırdılar. Qəsəbədə ermənilərlə birgə yaşayan vaxt məktəbə gedəndə yol boyu onlarla dalaşırdıq. Ermənilər göz görə-görə mənim övladımı öldürdülər. Qızımı xəstələndiyi üçün rayonun xəstəxanasına aparmışdım. Guya uşağa sistem vururdular. Uşağın 41-ə qalxan temperaturu sistemi çıxardan kimi 36-ya düşdü. Ondan sonra uşağım öldü. Ermənilər həmişə bizimkiləri öldürməyə çalışırdılar. Ruhumuz duymadan camaatımızı bir-bir məhv edirdilər.

***- Ermənilərlə bağlı başqa hansı xoşagəlməz xatirələriniz var?***

- Bir dəfə biz qəsəbədə yaşayanda atam "stalavoy"un qarşısında 5-6 erməninin davasına şahidlik etmişdi. Evə gələndə dedi ki, bir erməni digərini vurdu öldürdü. Atam da bunu sadəcə aralıdan görüb. 2-3 saatdan sonra evimizə polislər gəldi və ermənini öldürdüyünü iddia edərək atamı həbs etdilər. Atam nə qədər sadəcə davaya baxdığını, amma kimisə öldürmədiyini desə də, inanmadılar. Ermənilərin hamısı izahat yazmışdı ki, həmin adamı türk kişi öldürüb. Hətta həmin erməninin arvadına pul təklif etmişdilər ki, polislərə yalan ifadə versin. Erməni qadın yalandan demişdi ki, guya əri son nəfəsində onu bir türkün vurduğunu deyib. Atama 10 il və sonunda güllələnmə cəzası verdilər. Atam 1 il boyunca dayanmadan Moskvaya məktub göndərdi ki, günahsız yerə həbs olunub. Yenidən məhkəməsi oldu. İlk olaraq güllələnmə cəzasını götürdülər. Daha sonra isə əsl cinayətkar məlum oldu və atam azadlığa buraxıldı. Yəni, ermənilər belə millətdir.

***- Bəs, ata-ananız hansı şəraitdə kəndi tərk ediblər?***

- Valideynlərim çətin vəziyyətdə canlarını ermənilərdən qurtarıblar. İkimərtəbəli evimiz, qışlıq azuqələrimiz, mal-mülkümüzün hamısı ermənilərə qaldı. Atamgil qaçıb özlərini Gürcüstana yetiriblər. Sonradan Moskvadan komissiya evi dəyişmək üçün gələndə kəndə qayıdıblar. Bakıdan gedən ermənilərlə bizimkilər evlərini dəyişirdilər. Hətta ermənilər deportasiya zamanı bizimkiləri aldadırdılar. Ermənilərdən biri əmimgilə gələrək deyib ki, maşınla gəlmişəm, əşyalarınızı aparmağa kömək edə bilərəm. Əmimoğlugil də sevinir ki, erməni onlara yardım göstərir. Evlərinin bütün əşyalarını ermənininin maşınına yığandan sonra yarıyolda əmimoğlugili düşürüb. Erməni onları təhdid edib ki, ya maşından düşün, ya da maşını yandıracam. Onlar da yanmamaqdan ötrü qaçmışdılar. Bütün mülkləri də erməniyə qalmışdı.

Amma Azərbaycan dövləti indi erməniləri Qarabağdan mədəni şəkildə yola salır. Hətta polislərimiz onlara yeməyini, suyunu belə verir. Ermənilər isə bizi hansı qəddarlıqla öz yurdumuzdan qovublar. Atamın maşını kənddən çıxana kimi arxasınca tüfəng atıblar.

***- Azərbaycanlılar niyə kənddən Bakıya gəlməyə can atırdılar?***

- Çünki ermənilər bizimkiləri işə götürmürdülər. Azərbaycanlılar işsiz qalmışdı. Bizim camaatı ancaq ağır işlərdə çalışdırırdılar. Azərbaycanlılar da can atırdılar ki, məktəbi qurtarıb Bakıya universitet oxumağa, işləməyə gəlsinlər. Artıq o həddə çatmışdı ki, kənddə birinci sinfə gedəcək uşaq qalmamışdı. Çünki hamı ailəsini götürüb Bakıya gəlirdi. Ya kənddə işsiz qalmalıydılar, ya da Bakıda, Gəncədə məskunlaşmalıydılar. Yalnız bayramlarda, tətillərdə valideynlərimizi görmək üçün kəndə gedirdik.

***- Elə söz düşmüşkən, kənddə bayramları necə keçirirdiniz?***

- Kənddə bayramı elə keçirirdik ki, heç Bakıda elə bayram qeyd eləmirdilər. Biz Novruz bayramını qeyd eləməkdən ötrü kəndə gedirdik. Çünki Bakıda tonqal qalamırdılar, yığıncaq eləmirdilər, qonaq getmirdilər. Amma kənddə bayram vaxtı şən əhval-ruhiyyə olurdu. Kənddə biz orucumuzu da tuturduq, məhərrəmlik də saxlayırdıq. Bakıda isə bunlara icazə vermirdilər.

***- Yenidən kəndinizdə yaşamaq istəyərsinizmi?***

- Bu dəqiqə evimi o qədər çox görmək istəyirəm ki... Amma orada yaşamağa ürəyim gəlməz. Çünki nə atam, nə anam, nə də qardaşım orada olmayacaq və yerləri görünəcək. Hər birinin məzarı buradadır. Əgər vaxtında geri qayıtsaydıq, bəlkə qalıb yaşamaq istəyərdim. Amma indi mən orada yaşamağa dözə bilmərəm.

***- Bəs, sizcə, Qərbi Azərbaycana qayıdış mümkün olacaq?***

- İnanıram ki, doğma yurdumuza qayıdış mümkün olacaq. Ali Baş Komandanımız və ordumuz ki, 44 günə Qarabağı azad edib, Qərbi Azərbaycanı da geri qaytararlar. Biz dövlət rəhbərimizə güvənirik.

**Ləman Sərraf**

ARAŞDIRMA

# Nəm salfet, yoxsa zəhər...

*Xüsusən daim çantada saxladığımız və gündəlik olaraq həm özümüz, həm də övladlarımız üçün istifadə etdiyimiz nəm salfetlərin zərərlərini bilsəydiniz, ondan bir daha istifadə etmək istəməzdiniz. Bu məhsulları evdə, avtomobilinizdə, çantanızda, ofislərdə və iş yerlərində demək olar ki, hər stolun üstündə görə bilərsiniz.*







Bunun səbəblərindən biri də masa, şkaf, rəf, əl və əşyalar kimi davamlı toxunulan yerləri tez təmizləmək, daha gigiyenik bir quruluşa sahib olmaqdır. Bəs, həqiqətənmi bu səthlər və dərimiz nəm salfetlərlə təmizlənir?

SİA mövzu ilə bağlı araşdırma aparıb.

### Nəm salfeti kim ixtira edib?

Amerikalı Artur Julius nəm salfetlərin ixtiraçısı hesab olunur. Julius kosmetika sənayesində işləyirdi və 1957-ci ildə sabun parçalayan maşın düzəltdi. O, maşını Manhettendə bir loftda quraşdırdı. Julius 1958-ci ildə Wet-Nap markasını təqdim etdi və bu, hələ də istifadə olunan məhsulun adıdır.

### Nəm salfetlər Türkiyəyə nə vaxt gəlib?

1992-ci ildə Türkiyəyə onlarla müxtəlif nəm salfetlər daxil olub. Anaların və restoran sahiblərinin imdadına çatan bu ixtira çantaların vazkeçilməz əşyasıdır. Hər qadının həmişə çantasında olduğu nəm salfetlər uşaqlar üçün də tez-tez istifadə olunur. Hazırda körpələr üçün xüsusi olaraq istehsal olunan bu salfetlərə sıx-sıx rast gəlmək mümkündür. Hətta bu gün bir çox analar övladlarının bezini dəyişdikdən sonra onları yuyundurmaq əvəzinə nəm salfetlə silib təmizləyirlər. Bu da olduqca rahatdır. Bəs, gəlin görək bu rahatlığın arxasında hansı zərərlər dayanır.







### Nəm salfetlərin zərərləri

Bu məhsullar o qədər zərərsiz görünür ki, bəzi analar körpələrində səpgi və qıcıqlanmaya səbəb ola biləcəyini düşünmürlər. Təmiz və gigiyenik olduğuna inanılan bu salfetlərin səbəb olduğu sağlamlıq problemlərini öyrəndiyiniz zaman bir daha istifadə etmək istəməyə bilərsiniz.

Ətraf mühitə təsirləri

Bəzi salfetlərin tərkibində həll olunmayan maddələr var ki, bu da ekoloji problemlər yarada bilər. Xüsusilə tualet kağızı əvəzinə istifadə edilən nəm salfetlərin kanalizasiya sistemlərində tıxanmalara və ətraf mühitin çirklənməsinə səbəb ola biləcəyi ifadə edilib.

### Dəridə quruluq

Tərkibindəki spirt və ya kimyəvi maddələrə görə bəzi nəm salfetlər dəriyə tətbiq edildikdə quruluq və qıcıqlanmaya səbəb ola bilər. Xüsusilə tez-tez istifadə edildikdə dərinin təbii nəm balansını poza bilər.

### İstifadə sahələri qadağan olan yerlər

Nəm salfetlər bəzi səthlərin təmizlənməsi üçün uyğun olmaya bilər. Xüsusilə, elektron cihazlar kimi həssas səthlərə tətbiq edildikdə, materiallara və örtüklərə zərər verə bilər. Konnektikut Tibb Məktəbinin Dermatologiya və Pediatriya üzrə professoru Meri Vu Çanq üzündə şiddətli səpgi olan 8 yaşlı qızın durumunu araşdırıb. Antibiotiklərlə müalicə etdiyi balaca qızcığaz sonradan eyni yaralarla rastlaşanda həkim onun xəstəliyini araşdırdı. Kiçik qızın allergik reaksiyası olduğunu anlayan həkim əvvəlcə nəm salfetlərdən şübhələnmişdi.

Çanq eyni reaksiyanı birdən çox uşaqda görəndə bu məsələni ətraflı araşdırmağa başladı. 2 illik araşdırma zamanı Çanq nəm salfetlərdə istifadə olunan maddələri və onların zərərlərini araşdırmağa başladı. O, nəm salfetlərdə dəriyə zərər verən metilizotiyazolinonu (çox vaxt uşaq salfetlərində, əl kremlərində və losyonlarında tapılan kimyəvi maddə) tapmışdı. Allergiya testindən sonra nəm salfetdən istifadəni dayandıran kiçik qızın yaraları yox oldu.

İlk xəstəsindən sonra Çanq daha 5 oxşar belə hadisə gördü. Xarici xəbər saytına müsahibə verən həkim bildirib ki, valideynlər nəm salfetdən istifadəni azaltmalı, tərkibində metilizotiyazolinon maddəsi olan nəm salfetlərdən istifadə etməməlidirlər.

Araşdırmalar isə göstərir ki, son illərdə bəzi istehsalçılar kosmetik məhsullarda kimyəvi konsentrasiyanı 25 dəfə artırıblar.

### Türkiyəli mütəxəssis həkimlər də xəbərdarlıq edir

Xüsusilə, körpələr üçün istifadə olunan məhsullara diqqət yetirilməlidir. Nəm salfetlərdən istifadə edərkən çox diqqətli olmaq lazımdır. Çünki onların tərkibində ətir və spirt kimi yüksək miqdarda dezinfeksiyaedici maddələr ola bilər. Yüksək miqdarda spirt və ətir dəridə qızartı və səpgilər kimi müxtəlif allergik reaksiyalara səbəb ola bilər. Nəm salfetlərin həddindən artıq istifadəsi qaşınma, səpgi və qabıqlanma kimi bir çox xəstəliklərə dəvət edir. Fövqəladə hallarda əgər uşağınıza zərəri olmasını istəmirsinizsə, quru salfeti bir az su ilə isladıb təmizlik üçün istifadə edə bilərsiniz.

### Hansı nəm salfetdən istifadə edilməlidir?

**Pambıqdan olduğuna əmin olun**

Körpə üçün nəm salfetlərin 100% pambıq, sintetik lifsiz olması vacibdir. Çünki müxtəlif maddələrdən hazırlanan nəm salfetlər körpənin dərisində qızartı əmələ gəlməsini sürətləndirir. Pambıq təbii məhsul olduğundan, bu cür uşaq nəm salfetlərini seçin.

### Paltaryuyan maşına nəm salfet qoyulmasının faydaları

Geyimlərinizi paltaryuyan maşına qoyarkən maşına 3-4 nəm salfet qoyun. Nəm salfetlər paltardakı tükləri çıxarmağa kömək edir. Bütün bu hissəciklər həmin nəm salfetə yapışır və nəticədə paltar daha təmiz görünür.

### Nəm salfetlərin qurumasının qarşısını almaq üçün nə etməli? Nəm salfetləri necə saxlamaq olar? Nəm salfeti açmadan quruyur?

Nəm salfetlər ümumiyyətlə açıldıqdan sonra bir ilə qədər saxlanıla bilər. Bu müddətdən sonra onlar antibakterial xüsusiyyətlərini itirirlər. Nəm salfetlər çox isti və ya çox soyuq şəraitdə saxlandıqda isə asanlıqla xarab ola bilir.

### Nəm salfetlərin yox olması üçün nə qədər vaxt lazımdır?

Nəm salfetlər tualet kağızı kimi parçalanmır. Onlar özlərində plastik ehtiva edirlər, buna görə də dənizə tullandıqda zərər verirlər. Lifin əsas vahidi olan toxunmamış quruluşa malik olan nəm salfetlərin təbiətdə parçalanma müddəti təxminən 100 ildir.

Bütün bu yan təsirləri nəzərə alaraq belə məhsulların istifadəsini minimuma endirmək lazımdır. Bu, həm özümüzün, həm də övladlarımızın sağlamlığı üçün çox vacibdir.

**Ayşən Vəli**

# Ulu Öndər müstəqilliyimizin əbədiliyini təmin edib

## *Qəbələ rayonunda "Heydər Əliyev İli" çərçivəsində tədbir keçirilib*





***"Heydər Əliyev İli" ilə əlaqədar Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatı tərəfindən hazırlanan və İdarə Heyətinin qərarı ilə təsdiq edilən Tədbirlər Planı çərçivəsində YAP Qəbələ rayon təşkilatı oktyabr ayının 19-da tədbir keçirib. Əvvəlcə Ulu Öndər Heydər Əliyevin abidəsi önünə gül dəstələri qoyulub, dahi şəxsiyyətin xatirəsi ehtiramla yad olunub.***



Sonra rayon Şəhidlər xiyabanı ziyarət edilib, Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda canından keçmiş qəhrəman Vətən övladlarının əziz xatirələri ehtiramla anılıb. Tədbirdə Dövlət Himni səsləndirilib. Ulu Öndər Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda canlarını qurban vermiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Daha sonra Ulu Öndərin həyat və fəaliyyətindən bəhs edən videoçarx nümayiş olunub.

YAP Qəbələ rayon təşkilatının sədri Abil Ağasəfov hər zaman azərbaycanlı olması ilə fəxr edən, müstəqil Azərbaycan dövlətinin qurucusu və memarı, bütün varlığı ilə vətəninə, xalqına bağlı olan dünyaşöhrətli siyasətçi və böyük dövlət xadimi, Ümummilli Lider Heydər Əliyevin respublikamıza rəhbərliyinin bütün dövrlərində Vətən və xalq qarşısında misilsiz xidmətləri, xilaskarlıq missiyası, zəngin dövlətçilik irsi barədə məlumat verib. O bildirib ki, Ulu Öndər Heydər Əliyev xalqımızın rifahını düşünərək, bu ali amal uğrunda yorulmaz fəaliyyət göstərib, qəlblərdə daimi sevgi, yaddaşlarda əbədiyaşarlıq qazanıb.

Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayev söyləyib ki, bu gün Azərbaycanın qüdrətli dövlətə çevrilməsi, dinamik sosial-iqtisadi inkişafı, dünya birliyində öz layiqli yerini daha da möhkəmləndirməsi məhz Ulu Öndər Heydər Əliyevin ideyalarının nəticəsidir. Bu gün Prezident İlham Əliyev tərəfindən Ulu Öndərin siyasəti qloballaşan dünyanın tələblərinə uyğun uğurla davam etdirilir və müasir həyatımızın bütün sahələrində yüksək nailiyyətlər qazanılır.

YAP İdarə Heyətinin üzvü Samir Cəfərov Ulu Öndər Heydər Əliyevin zəngin dövlətçilik irsindən, müstəqil Azərbaycan dövlətinin inkişafı naminə müstəsna xidmətlərindən danışıb. Qeyd edib ki, Yeni Azərbaycan Partiyasının qurucusu və memarı, Ümummilli Lider Heydər Əliyevin davamçısı Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasət nəticəsində Azərbaycan inkişaf edir, yeni nailiyyətlərə imza atır.

Milli Məclisin deputatı, Qərbi Azərbaycan İcmasının sədr müavini Ramil Həsən deyib ki, Ulu Öndər Heydər Əliyev respublikaya rəhbərlik etdiyi bütün dönəmlərdə liderlik missiyasını layiqincə yerinə yetirib. Onun uzaqgörən və məqsədyönlü siyasəti sayəsində müstəqilliyimizin dönməzliyi təmin edilib və Azərbaycan böyük intibah yoluna qədəm qoyub.

Partiya veteranı, Qəbələ Ağsaqqallar Şurasının üzvü Tahir Hacıyev, Qəbələ Dövlət Peşə Təhsil Mərkəzinin direktor müavini Reyhan Məmmədova və rayonun Kürd kənd orta məktəbinin müəllimi Ümüdvar Həsənov bildiriblər ki, Azərbaycanın müstəqil, suveren dövlət kimi inkişafında və bu gün dünya birliyində layiqli yer tutmasında Heydər Əliyev ideyalarının, onun siyasətinin əvəzsiz rolu var. Sonda rayonun ictimai-siyasi həyatında fəal iştirak edən partiya üzvlərinə fəxri fərman, YAP sıralarına yeni qoşulanlara üzvlük vəsiqələri təqdim edilib.

# "Azərbaycanda heç bir zaman antisemitizm olmayıb"

## *İsrail Təhlükəsizlik Akademiyası Azərbaycan dövlətinə və xalqına müstəqillik günü təbriki ünvanlayıb*

***Dost və qardaş Azərbaycan dövlətini və xalqını tarixi istiqlaliyyətinin əldə olunmasının və suverenliyinin 32 illiyi münasibətilə təbrik edirik. Azərbaycan xalqı tarixən qanlı müsibətlərə ağır məşəqqətlərə məruz qalmışdır. Azərbaycan xalqı tarixən haqsızlıqlara yadellilərin hücumlarına məruz qalmış və zaman-zaman öz istiqlaliyyətini itirmişdir.***

70 il sovet əsarəti zamanı böyük repressiyalara məruz qalan Azərbaycan xalqı nəhayət ağır imperiya siyasətinə yox deyərək qanlı əsarətdən xilas olmuşdur. 1991-ci ilin Müstəqillik aktı ilə Azərbaycan öz müstəqilliyini elan edərək öz azadlığına qovuşmuşdur. Və təsadüfi deyil ki Azərbaycanın müstəqilliyini ilk tanıyan dövlətlərdən biri məhz İsrail dövləti olub. 1991-ci ilin dekabrın 25-də İsrail Azərbaycanın müstəqilliyini tanımış və öz siyasi dəstəyini göstərməyə çalışmışdır. Həmin gündən indiyə İsrail dövləti ilə müstəqil Azərbaycan Respublikasının dostluq əlaqələri başlamış və əlaqələr qardaşlıq münasibətlərinə yüksəlmişdir. Azərbaycan İsrailə ən yaxın dost ölkələr sırasındadır. Hətta bu dostluq müttəfiqliyə yüksəlib. İsraillə münasibətlərin qurulmasında və inkişaf etdirilməsində dahi şəxsiyyət Heydər Əliyevin böyük xidmətləri olmuşdur. Bu gün Azərbaycan və İsrail dövlətləri arasındakı dostluq münasibətləri prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməkdədir.

Azərbaycanda heç bir zaman antisemitizm olmayıb. Azərbaycan xalqı ilə yəhudi xalqı qardaşlaşmış və qohumlaşmış xalqdır.

Dost və qardaş Azərbaycan Respublikasının və xalqının müstəqillik və suverenlik gününü təbrik edir Azərbaycan xalqına əmin-amanlıq xoşbəxtlik və firavanlıq arzu edirik. Qardaş Azərbaycanın suverenliyi və təhlükəsizliyi daimi və əbədi olsun.

***İsrail Təhlükəsizlik Akademiyasının Qafqaz üzrə Azərbaycan Respublikasındakı Regional Nümayəndəliyi***

# "Böyük Qayıdışa dair Dövlət Proqramı sürətlə icra olunur"

***"Prezident İlham Əliyev işğaldan azad olunmuş ərazilərə üç ildə 70-dən çox səfər etmişdir. Bu, ilk növbədə, vətən torpağının dövlət başçımıza nə qədər əziz olduğunun göstəricisi hesab edirəm. Dövlət başçımızın bu ərazilərə səfərləri çoxlu infrastruktur layihələrin və yaşayış məntəqələrin təməllərinin qoyulması və açılışları mərasimləri ilə zəngin olur". Bunu SİA-ya açıqlamasında millət vəkili Azər Badamov deyib.***



**MÜNASİBƏT**

Onun sözlərinə görə, Böyük Qayıdışa dair Dövlət Proqramı sürətlə icra olunur: "Artıq Ağalıya, Laçına, Zabuxa, Talışa, Füzuliyə və digər ərazilərə keçmiş məcburi köçkünlər qayıtmaqda davam edir. Ölkə başçımızın bu səfərləri ermənilərin işğalı dövründə rular şəhərlərinə dönmüş ərazilərə yenidən canlanma və həyat qayıtmağı ilə müşahidə olunur. Bu səfərlərin böyük siyasi əhəmiyyəti də var. İlk növbədə, ölkə başçımızın dediyi sözün imzası qədər mökəm olduğunu göstərir. Həm də dövlət başçımız səfərlər çərçivəsində Ermənistana və onu dəstəkləyənlərə vacib mesajlar səsləndirir. Prezident İlham Əliyevin səsləndirdiyi mesajlar reallığa çevrildiyindən bu mesajları dinləyən ermənilər öz hərəkətlərini yenidən nəzərdən keçirir.

Prezident İlham Əliyev deyirdi ki, Ermənistanın baş naziri Qarabağın Azərbaycan olduğunu ifadə etməlidir və ölkə ərazimizin bütövlüyün tanıdığını açıqlamalıdır. Artıq Paşinyan cənab Prezidentin dediklərini ifadə etdi. İndi isə cənab Prezident Qarabağdan sülh mesajlarını verir. Ermənistan bu mesajları da dəstəkləməlidir. Dövlət başçımızın işğaldan azad olunmuş ərazilərə intensiv səfərləri xalqımıza və ordumuza yeni güc verir. Mübarizlik və qurucuLuq əzmimizi artırır. Həm də bizim öz doğma torpaqlarımıza qayıtdığımız dünyaya nümayiş olunur".







# Zəngilan günündə Zəngilan turizminə baxış

***Zəngilan rayonu Kəlbəcər-Laçın iqtisadi rayonuna daxil olan, iqtisadi və coğrafi nöqteyi-nəzərdən əlverişli potensiala malik rayondur. Rayon qərbdə dağlıq, şərqdə düzənlik əraziyə malikdir. Bu özəlliklər Zəngilan rayonunun şaxəli resurslara malik olması ilə bağlı fürsətlərdir.***



## Xarici ölkələrin diqqəti Zəngilandadır

Zəngilan rayonu qərbdə və şimal-qərbdə Ermənistanla, cənubda və cənub-şərqdə İranla həmsərhəddir. Bu da onun xarici ticarət üçün unikal imkanlara sahib olması deməkdir. Bu rayonun tranzit nöqteyi-nəzərdən xüsusi özəlliyi var ki, İran ilə ticarət münasibətlərinin daha da inkişafına töhfə verə bilər.

Eyni zamanda, Kəlbəcər-Laçın iqtisadi rayonunda Kəlbəcərdən sonra ikinci daha böyük və sənaye əhəmiyyətli 6,5 ton qızıl və 3 min ton mis təşkil edən "Vecnəli" yatağı, ehtiyatları 6 milyon 618 min kubmetr olan və üzlük daşı istehsalına yararlı Oxçuçay mərmərləşmiş əhəngdaşı, təsdiq edilmiş ehtiyatları 129 milyon ton olan Zəngilan (Daşbaşı-Əsgurum) əhəngdaşı, ehtiyatları 1 milyon 102 min kubmetr olan kərpic-kirəmid istehsalına yararlı Zəngilan gil və ehtiyatları 17 milyon 367 min kubmetr olan Zəngilan qum-çınqıl qarışığı yataqları da bu rayonun ərazisindədir.



Zəngilan rayonu iqtisadi, siyasi-hərbi cəhətdən strateji əhəmiyyət kəsb edir. Bu rayon müxtəlif növ faydalı qazıntı yataqları, o cümlədən qızıl, civə, mis, qurğuşun və sink, molibden, üzlük və mişar daşı, sement xammalı, müxtəlif növ tikinti və sənaye mallarına görə zəngin resurslara malikdir. Bütün bunlar rayonun iqtisadi əhəmiyyətini artırır və xarici investorların marağına səbəb olmaqdadır. Artıq xarici şirkətlər burada layihələrə başlamaqdadır. Türkiyə, Cənubi Koreya, İtaliya, İsrail, Çin, Rusiya və sigər ölkələrin kifayət qədər böyük layihələr icra edəcək ki, bu da Zəngilanın iqtisadiyyatımıza inteqrasiyasını gücləndirəcək, xarici ölkələr çıxışını təmin edəcək və burada yeni iş yerlərinin yaradılmasına böyük töhfə verəcək.

## Zəngilan aeroportunun turizmə qazandırdığı imkanlar

Zəngilan hava limanı vasitəsilə Zəngilan sənaye, tranzit daşınmalarının mərkəzi olacaq, böyük logistika mərkəzinə çevriləcək. Uçuş-enmə zolağının uzunluğu 3000 metr, eni 60 metr, terminalın buraxılış qabiliyyəti saatda 200 sərnişin olan hava limanı bütün növ təyyarələri, o cümlədən ağır yük təyyarələrini qəbul edəcək potensialdadır. Zəngilan Beynəlxalq Hava Limanının platforması eyni vaxtda 8 təyyarəyə xidmət göstərmək üçün nəzərdə tutulub. Hava limanındakı avtomatik sistemlər və idarəetmə qülləsi beynəlxalq mülki aviasiya və nəqliyyat standartlarına cavab verir. Hava limanının tikintisində Türkiyə şirkətləri də iştirak edib.

Qeyd edək ki, Azərbaycana ildə 2 milyondan çox turist gəlir, onların Qarabağa, xüsusilə də Zəngəzur bölgəsinə axını gözlənilir. Lazımi infrastrukturlar və normal həyat şəraiti turistlər üçün əsas amillərdən biridir. Xarici turistlərin Zəngilan hava limanı vasitəsilə gəlişi bu rahatlığı təmin edəcək.

Heç şübhəsiz ki, Zəngilanın işğaldan azad olunması ölkəmizin iqtisadi inkişafını sürətləndirəcək. İqtisadiyyatda tikinti sektorunun əhəmiyyətli paya malik olduğunu nəzərə alsaq, daxili tələbin qarşılanmasında Zəngilan rayon təbii sərvətləri əhəmiyyətli rol oynacaq. Bundan əlavə, son illər mineral resurslarımızın ixracı qeyri-neft sektorunda liderlik edir. Daha dəqiq desək, Zəngilan rayonunda sənaye əhəmiyyətli 6,5 ton qızıl və 3 min ton mis təşkil edən Vecnəli yatağından istifadə ilə ölkəmiz mineral resurslar ixracını daha da artıracaq.




İşğalda ikən Zəngilan rayonu ərazisində sübut olunmuş sənaye ehtiyatları 6,5 ton qızıl və 3 min ton mis olan Vedjneli qızıl yatağı da işğalçıların əlində qalıb. Belə ki, Azərbaycanın işğal olunmuş ərazilərində sənədləşdirilmiş təsdiq olunmuş sənaye ehtiyatları ilə zəngin 3 qızıl yatağı var idi ki bunlar da Zəngilan rayonundakı Vedjneli, Ağdərə rayonunda Qızılbulaq və Kəlbəcər rayonundakı Zod yataqlarıdır.

Dağlıq Qarabağın işğal olunmuş ərazilərində təbii sərvətlərin talan edilməsi məqsədilə 30-dan çox şirkət yaradılmışdı. Kəlbəcər rayonunun Heyvalı kəndi yaxınlığında yerləşən mis və qızıl yatağının kəşfiyyat və istismar məqsədi ilə ərazidə da inşa edilmişdi.

## Daşı-torpağı qızıl Zəngilan

Zəngilan qızıl və mis kimi dəyərli metallarla və sənaye əhəmiyyətli ehtiyatlarla zəngindir. İllərdir işğalçı Ermənistan Zəngilan rayonu ərazisində "ekoloji terror" həyata keçirib, yataqlar vəhşicəsinə istismar edilib. Zəngilan meşələrindən kəsilən nadir ağaclar ermənilər tərəfindən bəzi Avropa şirkətləri vasitəsilə qonşu ölkələrə daşınırdı. Xüsusilə, Bəsitçay Milli Parkındakı çinar ağacları erməni işğalçıları tərəfindən kəsilərək inşaat materialları istehsal edən xarici şirkətlərə satılırdı.

Zəngilan turizm potensialı yüksək olan rayondur. Rayonda 107 hektar sahəsi olan Bəsitçay Dövlət Qoruğu, 2,2 min hektar sahəsi olan Arazboyu yasaqlığı, 4 təbiət abidəsi, 10 min hektar xüsusi mühafizə olunan Araz palıd meşəsi, 12.864 hektar dövlət meşə fondu, 1200-dək təbii bulaqlar, 4 mənbədən ibarət Yesentuki-4 suyuna tərkibcə uyğun gələn mineral bulaqlar, Turşsu mineral bulaqları mövcuddur.

Zəngilan rayonu termal sularla zəngin olduğu üçün burada müalicəvi sanatoriya tipli turizm obyektləri inşa edilə bilər. Həmçinin müxtəlif tarixi abidələrin, xristianlığa və islama aid müxtəlif ziyarətgahların yerləşdiyi ərazilər turizm üçün yararlıdır. Hətta maraq çoxdur. Rayonun əsrarəngiz dağlıq əraziləri var ki, orada dağ-idman turizmi təşkil oluna bilər.

1974-cü ildə yaradılan 107 hektar ərazisi olan Beşitçay Milli Parkında dəyərli ağaclar mövcuddur ki, bəzilərinin yaşı 1200-1500 ili keçir. Doğrudur, işğalda olduğu müddətdə ağacların çoxu kəsilərək xammal kimi istifadə edilib, misilsiz təbii qoruq talan edilib, lakin unikal təmiz havasına, füsunkar təbiətinə görə də Zəngilan rayonu bölgənin turizm potensialının əhəmiyyətli bir hissəsi olacaq.

***Lalə Mehralı***

# Avropa Parlamenti kimlərə "işləyir"?

## Anti-Azərbaycan xarakterli addımların atılmasının, yaxud bəyanatların səsləndirilməsinin Bakı üçün istisi-soyuğu yoxdur

***Bir müddət əvvəl Avropa Parlamentində baş verən korrupsiya olayı və həmin olayın bir ucunun ermənilərə bağlı olması faktı bu qurumu, sözün əsl mənasında, silkələmiş oldu. Yəni sübuta yetirildi ki, Belçika polisinin Brüsseldə axtarışlar aparması və Avropa Parlamentinin vitse-prezidenti Eva Kaili də daxil olmaqla dörd nəfəri həbs etməsi bu qurumun nə qədər korrupsiya çirkabına bulaşdığını kifayət qədər isbatlayıb. Əbəs deyil ki, Belçika prokurorluğunun rəsmi bəyanatında da bildirib ki, istintaqda olan müttəhimlər Avropa Parlamentinin qərarlarına təsir göstərməyə imkan verən siyasi və ya strateji mövqeyə malik üçüncü şəxslərə külli miqdarda pul ödəməkdə və ya əhəmiyyətli hədiyyələr verməkdə şübhəli biliniblər. İstintaq bu gün də davam edir və ehtimallar var ki, həbslərin sayı arta da bilər. Bütün bunlar öz yerində...***



Lakin həmin olayın ardınca Avropa Parlamenti hələ də özünün siyasi oyunbazlıqlarından geri qalmır, üstəlik, erməniпərəstlik mövqeyini daha geniş arealda nümayiş etdirməyə çalışır. Buna misal kimi adıçəkilən qurumun hər dəfə Azərbaycanı hədəfə almasını göstərmək olar. Daha doğrusu, Azərbaycanı bütün "günahlarda" ittiham atəşinə tutublar. Bəs həmin qərəzlər hansılardır?

Avropa Parlamentinin əsas məqsədlərindən biri Ermənistandan istifadə etməklə regionda Avropa İttifaqının missiyasının təsirini artırmaq və paralel olaraq Azərbaycanın, Türkiyənin və Rusiyanın maraqlarının qarşısını almaqdan ibarətdir. Avropa Parlamenti tələb edir ki, Ermənistanın ərazi bütövlüyünə hörmət olunsun və Azərbaycan Silahlı Qüvvələri möhkəmləndiyi mövqelərini tərk etsin. Ancaq Avropa Parlamentində nədənsə Azərbaycanın ərazi bütövlüyünə edilməli olan hörmətdən bəhs edilmir, üstəlik, dünya birliyinin (!) Azərbaycanın ərazisi olaraq tanıdığı Qazaxın 7 kəndi və Naxçıvanın bir kəndində qalmağa davam edən qanunsuz erməni silahlılarının çıxarılması barədə bir kəlmə də olsun fikir səsləndirilmir (?!) Və biz üçtərəfli bəyanatda qəbul edilmiş bəndlərin İrəvan tərəfindən əməl edilməməsi faktı barədə də heç nə görmürük!

Belə bir qərarların isə əlbəttə ki, Azərbaycana təsir göstərməsi qeyri-mümkündür, çünki ədalətli olan da məhz Azərbaycandır. Ədalətsiz qərarın, qətnamənin verilməsindən təəssüf doğuracaq faktor isə, əlbəttə ki, buna qarşı dişsiz Avropa İttifaqının susqun davranışıdır. Ən azından, regionda sülhün bərqərar olması üçün ilkin vaxtlarda kifayət qədər cəhdlər göstərdiyi görünən Avropa İttifaqı şurasının rəhbəri cənab Şarl Mişel Avropa Parlamentinin bu oyunbazlığına qarşı heç olmasa yumşaq iradını bildirməli idi, amma təəssüf ki, bunu da müşahidə etmədik...

Beləliklə, növbəti anti-Azərbaycan xarakterli addımların atılmasının, yaxud bəyanatların səsləndirilməsinin Bakı üçün istisi-soyuğu yoxdur. Bunun isti-soyuğu, əlbəttə ki, korrupsiyaya bulaşmış Avropa Parlamentinin imicinə olacaq. Çünki vaxt dayanmır, sürətlə irəliləyir və Ermənistan bu və ya digər şəkillərdə korrupsiya və rüşvətlər hesabına hansısa qurumlarda sənədlər qəbul etdirəcəksə, əslində, özünə pis perspektivlər yaradacaq. Sonrakı məsuliyyəti də əlbəttə ki, bu gün sərsəm qətnamələr qəbul edən Avropa Parlamentinin də üzərinə düşəcək. "Hələ ki, gec deyil" ifadəsinin də işlədilməsinə artıq yer yoxdur. Gecdir və günahı da söz yox ki, qarşı tərəflər daşıyır!

***Afət Tahirqızı***

---

# "İqtidarın qazandığı uğurlara sevinməmək xəbislik və xainlikdir"

"Təəssüf edirəm ki, sapı özümüzdən olan "baltalar"- radikal müxalifət, xaricdə oturan bəzi sosial şəbəkə "qəhrəmanları" Azərbaycanın uğurlarına kölgə salmağa cəhd edir, bəzi hallarda erməni quldurlarına haqq qazandırmağa çalışırlar. İstər müharibə, istərsə də sonrakı dövrdə radikalların ucuz demaqogiyası, əsl reallıqları "görməmələri" yalnız təəssüf doğurur. Bütün regiona sülh, rifah və barış gətirmiş Azərbaycanın quruculuq işlərinə kölgə salmaq cəhdlərinin isə bir adı var: xainlik". Bu sözləri SİA-ya açıqlamasında Demokratiya və İnsan Hüquqları Komitəsinin sədri, Hüquq üzrə fəlsəfə doktoru Çingiz Qənizadə deyib.

Onun sözlərinə görə, hər bir cəmiyyətdə və dövlətdə sağlam müxalifətin olması bütün sahələrdə inkişafa zəmin yaradır: "Düzü-düz, əyrini-əyri görmək cəmiyyətdə tutduğu mövqeyindən asılı olmayaraq, sağlam təfəkkürlü insanlara məxsusdur. Siyasətdə isə hər şeyi əyri görənlərin təfəkkürü və məntiqi qərəzçilik üzərində köklənib. Bu ədalətsiz yanaşma və paxılıq yalnız radikal müxalifətə xas olan xüsusiyyətdir. Məsələn, radikal müxalifət nümayəndələri öz ucuz ritorikaları vasitəsilə ölkəmizi Ermənistanla qərəzli şəkildə müqayisə edərək, əldə olunmuş uğurları Azərbaycan xalqının əlindən "oğurlamağa" çalışır, qazandığımız tarixi Qələbəni qısqanclıqla qarşılamalarını ört- basdır edə bilmirlər.

Hesab edirəm ki, iqtidarın qazandığı uğurlara sevinməmək xəbislik və xainlikdir. Real siyasi rəqiblər qarşısındakının qazandığı qələbəni ən azı əl uzatmaqla təbrik etməli, müxtəlif yollarla öz tərəfdaşlarına çatdırmalı və gələcəkdə müxalifət olaraq qalacaqlarını bildirməklə, eyni zamanda, dövlətin və xalqın milli maraqlarına söykənən bütün ideyaların ətrafında birləşəcəyini qeyd etməlidirlər. Biz bunu qardaş Türkiyənin timsalında da tez-tez görürük. Hətta seçkilərdə iştirak edən və etməyən müxalifət partiyalarının nümayəndələri də rəqiblərinin qələbəsini, uğurlarını sevinclə qarşılayırlar".

Çingiz Qənizadə sözlərinə belə davam edib: "Bizdə isə tamamilə fərqlidir. Azərbaycan cəmiyyəti tarixin bütün dövrlərində radikal müxalifətin-xainlərin düşmənin yanında olmalarına şahidlik edib. Bir faktı diqqətə çatdırmaq yerinə düşərdi. Ölkəmizə qarşı açıq düşmənçilik mövqedə olan və erməni lobbisinin yuvası hesab edilən Fransanın danışıqlar prosesində vasitəçilik etməyini arzu edən AXCP heç bir halda milli siyasi qüvvə sayıla bilməz. Siyasi mədəniyyətdən məhrum olmuş radikal müxalifət-xaricdə oturan bəzi sosial şəbəkə "qəhrəmanları" öz mövcudluğunun mənasını yalnız düşmənçilikdə görür. Nifrət, düşmənçilik və cəmiyyətdə total şübhə toxumunun yayılması, tarixi uğurlarımıza sevinməyən radikalların siyasi mübarizə metodlarıdır. Xəstə təfəkkürlü, hakimiyyətə qarşı düşmənçilik edən, bəzi əməlləri ilə ermənilərə dəstək verən radikal müxalifətin hətta şanlı Qələbəni belə şübhəyə salmaları heç də təəccüblü və təsadüfi deyil. Çünki onlar xarici ağaların, radikallara çirkli pullar ötürənlərin sifarişlərini yerinə yetirir və çaldıqları hər havaya oynayırlar. Sapı özümüzdən olan "baltalar" uzun müddətdir ki, hakimiyyətin qazandığı bütün uğurlara qısqanclıqla yanaşırlar. Son hadisələrdə, xüsusilə, 44 günlük Vətən müharibəsində, şanlı Zəfərin qazanılmasında, ondan sonrakı proseslərdə, lokal xarakterli antiterror əməliyyatlarında xalqımız və ölkədə fəaliyyət göstərən əksər siyasi partiyalar Prezidentin, Ali Baş Komandanın ətrafında birləşəndə radikal müxalifət "zavallı ermənilər"in yanında idi. Onlar döyüşçülərimizi ruhlandırmaq əvəzinə, "Qarabağı heç vaxt azad edə bilməyəcəklər"- deməklə xalqın iradəsini sarsıtmaq istəyirdilər.



Qələbədən sonra müxtəlif yalan və böhtanlara, məsələn,"Xankəndiyə, Xocalıya, Əsgərana girməyəcəyik", "Ərazi bütövlüyümüzü bərpa edə bilməyəcəyik", "Qarabağ azad olunarsa, qulağımı kəsərəm"- deyənlər, görəsən, bu möhtəşəm Qələbədən və cənab Prezidentin adı çəkilən şəhərlərdə Azərbaycanın Bayrağını qaldırandan sonra heç utanıb xəcalət çəkirlərmi? İndi də belə müxalifət liderləri cənab Prezidentin oktyabrın 15-də Xankəndi, Xocalı, Əsgəran, Ağdərədə Dövlət Bayrağımızın qaldırılmasını öz prizmalarından yozmağa çalışaraq, iddia edirlər ki, niyə Prezident həmin ərazilərə bir aydan sonra getdi? Onların iddialarına görə, gərək Prezident antiterror tədbirlərindən dərhal sonra gedəydi. Amma bu adamlar dərk etmirlər ki, bölgədə təhlükəsizlik tədbirləri tam həyata keçirilmədən, Prezidentin həyatının təhlükəsizliyinə təminat verilmədən dövlət başçısının həmin ərazilərə səfər etməsi mümkün deyil. Bununla yanaşı, Azərbaycan bayrağının həmin ərazilərdə qaldırılmasına hazırlıq işləri görülməli idi. Göründüyü kimi, radikal müxalifət yenə su bulandırmaq istəyir. Ancaq bu dəfə də istəkləri ürəklərində qaldı. Bu uğurlarımızı və tarixi nailiyyətlərimizi görməyən radikal müxalifətin gözündəki eynəklərin və ya linzaların Ermənistan istehsalı olmasına heç bir şübhəmiz yoxdur. Çünki onların siyasi baxışları Ermənistanın siyasi hakimiyyəti və Avropada ələ alınmış satqın parlamentarilərin fikirləri ilə üst-üstə düşür".

***Ayşən Vəli***

---

# "Prezident təqaüdləri abituriyentlər üçün stimuldur"



DEPUTAT DANIŞDI

"Müstəqil Azərbaycanın tarixində ilk dəfə ən yüksək bal toplayan tələbələrə təqaüd verilməsi Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlıdır. Heydər Əliyev təhsilə yüksək qiymət verir, tələbələrin uğurlarını qiymətləndirirdi. 1969-cu ildə Ulu Öndər hakimiyyətə gəldikdən sonra hər il minlərlə Azərbaycan gəncini SSRİ-nin ən nüfuzlu ali məktəblərinə göndərir və tələbə adını qazananları qəbul edərək, onlara xeyir-dua verirdi. Həmin tələbələr isə həm Azərbaycanın etimadını doğruldur, həm də təhsilini mütəxəssis kimi başa vurduqdan sonra ölkəmizə qayıdır, burada çalışırdılar. Beləliklə də Azərbaycan öz dövlət müstəqilliyini bərpa etdikdən sonra da Ümummilli Lider bu ənənəni davam etdirdi". Bu sözləri SİA-ya açıqlamasında millət vəkili Anar İsgəndərov deyib.

Onun sözlərinə görə, hazırda da Azərbaycan dövlət başçısının sərəncamı ilə 102 tələbəyə prezident təqaüdünün verilməsi mühüm bir addımdır: "Bu, ilk növbədə, dövlətin təhsilə olan münasibətini göstərir. Eyni zamanda, ali məktəbə hazırlaşan abituriyentlər üçün də stimul olur.

Azərbaycan dövləti Qarabağda böyük quruculuq işlərinin aparılmasına baxmayaraq, gəncini, tələbəsini unutmur, hər zaman gəncliyin yanındadır. Hansı ki, 44 günlük müharibə göstərdi ki, bu gün əlində qələm olan gənc, lazım gəldikdə də əlinə silah alıb, cəbhədə Vətənin azadlığı uğrunda vuruşa bilir".

***Səbinə Hüseynli***



# Əli Kərimli və trol dəstəsi özlərini cəmiyyətdən təcrid ediblər

***Reallığı etiraf etmək, ədaləti dilə gətirmək böyüklük və ucalıq əlamətidir. Təəssüflər olsun ki, siyasi arenada elə şəxslər var ki, düz söz deyənə yamanlıq edirlər, haqqı söyləyənə satılmış damğasını vururlar. Hətta AXCP, Müsavat kimi partiyalarda təmsil olunan sıravi üzvlər ədalətli mövqe ifadə etdiklərinə görə partiya sıralarından xaric edilirlər. Bu barədə çoxsaylı faktlar, sübutlar göstərmək olar. AXCP MNTK-ın sədri Aydın Əliyev Əli Kərimlini təşkilat daxilində qatı diktatura qurmaqda ittiham etdiyinə görə cəzalandırılmışdır.***



A.Əliyev məhkəmə vasitəsi ilə pozulmuş siyasi hüquqlarının bərpasına nail olsa da, Ə.Kərimli uzun müddətdir ki, məhkəmənin qərarını icra etməkdən imtina edir. Bu da bir daha Ə.Kərimlinin demokratik idarəetmə prinsiplərinə dözümsüz olduğunu göstərir. Baxmayaraq ki, hər fürsətdə azad, demokratik cəmiyyət quruculuğundan, siyasi plüralizmdən danışır. A.Əliyevə və digər cəbhəçilər qarşı hegemon münasibəti isə onu təsdiq edir ki, danışdıqları sadəcə boşboğazlıqdan başqa bir şey deyil. Eyni qaba münasibətlə Sahib Kərimli də rastlaşıb. AXCP funksionerlərindən olmuş S.Kərimli açıq fikirli olmasına görə Ə.Kərimlinin qəzəbinə məruz qalıb. Nəticədə heç bir əsas gətirilmədən partiya sıralarından xaric edilib. S.Kərimli isə qərarla razılaşmaq fikrində deyil: "Bəyan edirəm ki, qanuni yollarla bu qərarın saxta olduğunu sübut edəcəyəm, partiya üzvlüyümü bərpa edib, Əli Kərimlinin istefasına nail olub, demokratik qurultay keçirilməsini təmin etmək üçün sistemli fəaliyyətə başlayacağam.Hələlik isə Əli Kərimli partiya üzvlərini və cəmiyyəti aldatmaqla məşğul olsun, zaman onun əleyhinə işləyir. Qərara qarşı bu gün başlayacağım fəaliyyəti öz lehinə çevirib, ictimai rəyi yenidən çaşdırmasına imkan verməyəcəyəm. Bu qədəri ilə, hələlik, kifayətlənirəm".

### "Əli Kərimli, o meydana bir dəfə də özün çıx, o həbsə bir dəfə də özün gir"

Xankəndi şəhərində üçrəngli bayrağımızın ucaldılmasından sonra dağıdıcı müxalif ünsürlərin, xüsusilə də Ə.Kərimlinin həyəcanlanması, narahat və paxıllıq hisslərini ortaya qoyması əksər cəbhəçilərin qəzəbinə səbəb olub. Məsələn, AXCP-nin Nizami rayon şöbəsinin üzvü Şakir Vəliyev sosial şəbəkə hesabında Ə.Kərimlinin suverenliyimizin bərpa olunmasına qısqanclıqla yanaşmasını ona olan kənar təsirlərlə əlaqələndirir. Cəbhəçi Jalə Xuduyeva isə Ə.Kərimlini xalqın sevincinə şərik olmamaqda qınayıb. S.Kərimli isə Ə.Kərimlini qorxaqlıqda ittiham edib. O özünün facebook səhifəsində yazır: "Siyasi partiya ictimai institutdur. Onun sədri hakimiyyət uğrunda mübarizədə qalib gəlməyə bilər, amma ictimai institut cəmiyyət və dövlət üçün, heç olmasa faydalı kadrlar hazırlamalıdır. Təkcə siyasi məhbus və siyasi satqından başqa heç nə yetişdirməyən AXCP və lideri Əli Kərimli kimə nə faydası ola bilər?".

### "Əli Kərimli, dələduz kahinlər kimi "ibadətlə" məşğul olmağa nə var ki"

S.Kərimli paylaşdığı statusunda onu da qeyd edir ki, hazırkı mərhələdə AXCP-nin konkret əməli fəaliyyət yoxdur, yalnız ağlaşma, giley var: "Sonda da xalqa minnət qoymaq ki, hamılıqla meydana çıxmasanız heç nə düzələn deyil. Əli Kərimli, o meydana bir dəfə də özün çıx, o həbsə bir dəfə də özün gir. Get bölgələrə, şəhid dəfnlərində iştirak elə, Rusiya səfirliyinin qarşısına çıx. Sosial şəbəkəni, youtube kanallarını ağlama divarına çevirib, dələduz kahinlər kimi "ibadətlə" məşğul olmağa nə var ki".

Ümumiyyətlə, görünən fakt ondan ibarətdir ki, cəmiyyətin hər bir üzvü, müxalifətdə olmağından asılı olmayaraq Ə.Kərimlinin, Tofiq Yaqublunun, Cəmil Həsənlinin və digərlərinin böyük, qürurverici qələbəmizə kölgə salmağa çalışmalarına öz hiddət və qəzəblərini nümayiş etdirirlər. Hətta məsələ parlamentdə təmsil olunan müxalif deputatlarında diqqətindən yayınmayıb. Milli Cəbhə Partiyasının sədri, deputat Razi Nurullayev, Vəhdət partiyasının sədri, deputat Tahir Kərimli, BAXCP sədri, deputat Qüdrət Həsənquliyev və digərləri Ə.Kərimlini, T. Yaqublunu, C.Həsənlini ittiham edən açıqlamalarla çıxışlar ediblər. Vəhdət partiyasının sədri, deputat Tahir Kərimli məsələni daha kəskin ifadə edib. O torpaqlarımızın işğaldan azad edildiyi üçün müxalifətçiliyə ehtiyac olmadığını bildirib: "Mənim partiyamın müxalifətçiliyinə nə ehtiyac var? Biz Cənab Prezidentin yanında olmalıyıq, nəinki qarşısında. Torpaqlarımızı işğaldan azad edib Azərbaycanın ərazi bütövlüyünü, ölkənin suverenliyini bərpa edən, bütün islam dünyasının lideri olan Prezident İlham Əliyevə qarşı çıxmağa haqqı yoxdur. Axı, bu, hamımızın istəyi və arzusu olub! Belə bir problemləri həll edən liderə qarşı necə müxalif mövqedə olmaq olar?".

T.Kərimli onu da qeyd edib ki, bizim bundan sonra əsas vəzifəmiz Prezidentin yanında olmaqdır: "Müxalifətin mübarizəsi nifrət üzərində qurulub. Mən onları sevgiyə, birliyə, həmrəyliyə çağırıram".

### Dağıdıcı müxalifət haqqı dilə gətirməkdən, ədalətli mövqe ifadə etməkdən uzaqdır

Hesab etmək olar ki, məsələnin parlamentə qədər gedib çıxmasından sonra dağıdıcı müxalif məxluqlar səhvlərini başa düşüb, ətəklərindəki daşları yerə atacaqlar, üzrxahlıq edib, siyasi kurslarını dəyişəcəklər. Lakin yuxarıda girişdə qeyd etdiyim kimi, dağıdıcı müxalifət haqqı dilə gətirməkdən, ədalətli mövqe ifadə etməkdən uzaqdır. Bu baxımdan da hazırkı mövcud durumu da dəyərləndirib, ona uyğun addım ata bilmir. Milli Şuranın Koordinasiya Mərkəzinin üzvü Gültəkin Hacıbəyli parlamentdə səslənən ittihamlara özünün dayaz düşüncəsi, bəsit ağılı ilə cavablandırır. Hətta kino qəhrəmanları demişkən, hərzə-hərzə danışıb, özünü çoxbilmiş kimi göstərməyə çalışır: "Torpağımız işğaldan azad olunandan sonra müxalifətə ehtiyac yoxdur" deyənlər ya özləri gerizəkalı olmalıdır, ya xalqı gerizəkalı hesab edirlər. Bu iddiada bulunanlar dialektikanın üç əsas qanunundan ikisini (inkarı inkar və əksliklərin vəhdəti və mübarizəsi) inkar edəcək qədər cahil olduqlarının fərqində belə deyillər. Müxalifətin olması, rəqabətin olması deməkdir. Rəqabət isə inkişafın hərəkətverici qüvvəsidir. Rəqabət olmayan mühitdə inkişaf deyil, ətalət, durğunluq hökm sürər. Cəmiyyət korrupsiya, monopoliya, haqsızlıq, sosial ədalətsizlik, yoxsulluq, işsizlik bataqlığında boğular".

Bir sözlə, görünən ondan ibarətdir ki, Əli Kərimli və trol dəstəsi, xüsusilə də C.Həsənli, Fuad Qəhrəmanlı, Gültəkin Hacıbəyli. Tofiq Yaqublu və digərləri parlaq hərbi, siyasi, diplomatik qələbəmizdən əndişələniblər, dərdə, qəmə mübtəla olublar. Tibb elmi belə xəstələrin uzun müddətə ayaqda qalmasının çətin olduğu qənaətindədir.

***İ.ƏLİYEV***

# Zəhərlənmələr artır: özünüzü botulizmdən qoruyun

Qida zəhərlənməsi, hər kəsin başına gələ biləcək bir hadisədir – bəzən ehtiyatsızlıqdan, bəzən tamahdan. Qida zəhərlənməsi bəzən adi bir mədə yuyulması ilə yüngül bir şəkildə sovuşdurula bilən prosesdirsə, bəzən də ölümə yol aça biləcək qədər təhlükəlidir. Qida zəhərlənməsinin səbəbləri çoxdur, məhsulların gigiyenik şəraitdə saxlanmaması, tərkibində olan kimyəvi elementlər, habelə orqanizmin mənimsəyə bilmədiyi maddələrlə zəngin olması da bu səbəblərdəndir. Zəhərlənməyə səbəb olan qidaların çeşidi isə boldur.



2023-cü ilin 9 ayı ərzində baş vermiş qida zəhərlənmələrinin statistikası açıqlanıb. Qida Təhlükəsizliyi Agentliyindən bildirilib ki, bu ilin yanvar-sentyabr ayları ərzində Agentliyə qida zəhərlənmələri ilə bağlı 586 müraciət daxil olub. Təsdiqini tapmış zəhərlənmə faktlarının sayı 106 olub. Eyni zamanda, qida zəhərlənməsilə əlaqədar 869 nəfər qeydiyyata alınıb, təsdiq olunmuş qida zəhərlənməsi ilə zərərçəkənlərin sayı 216 nəfər təşkil edib. Zəhərlənmədən ölən 1 nəfər olub ki, o da 53 yaşlı Zaqatala sakini olub. O göbələkdən zəhərlənərək ölüb. Rayonun Höytala kənd sakini, 1970-ci il təvəllüdlü Kərəm Hacıxan oğlu İmranov ötən gün göbələk zəhərlənməsi diaqnozu ilə müalicə aldığı Bakıdakı Kliniki Tibbi Mərkəzində dünyasını dəyişib.



Kənd təsərrüfatı məhsullarının yetişdirilməsində ziyanvericilərlə mübarizə üçün geniş şəkildə kimyəvi dərmanlardan istifadə edilir. Torpağa bol gübrə verilir. Təkcə Qubada bir il ərzində alma ağaclarına ziyanvericilərlə mübarizə aparmaq üçün 16 dəfə zəhər vurulur. Torpağa külli miqdarda zəhərli maddələr yeridilir və bunlar yerində qalmır, meyvələrlə, tərəvəzlərlə insan orqanizminə daxil olur. Çoxlu məhsuldarlıq əldə etmək üçün külli miqdarda zəhərli maddələrdən istifadə edilir. Bunun da nəticəsi zəhərlənmələr olur.



Qeyd edək ki, mövsümü zəhərlənmələrə zamansız satışa çıxarılan meyvələr, keyfiyyətsiz dondurmalar, uyğun şəraitdə saxlanmayan şokaladlar, tortlar, balıq, ət və tərəvəz konservləri, hazır təklif edilən qidalar, habelə sərinləşdirici içkilər də səbəb ola bilər. Odur ki, balıq və ət konservlərini aldıqdan və istifadə etdikdən sonra yerdə qalanını öz qabında deyil, şüşə bir qaba boşaltmaq lazımdır, unutmayın ki, yalnız evdə qeyri-peşəkar üsullarla hazırlanan konservlər zəhərlənmə yaratmır, mağazalarda təklif edilən müxtəlif sənaye konservləri də botulizm xəstəliyinə səbəb ola bilər. Tərəvəz, balıq, ət konservləri aldıqda qablaşdırılmasına, xüsusilə də istifadə müddətinə diqqət edin. Qapağı şişmiş konservlər təhlükəlidir.



Botulizm ev şəraitində hazırlanan müxtəlif turşular, mürəbbələr və kompotların istehlakı nəticəsində yaranan zəhərlənmələrdir. Botulizm zəhərlənməsini yaradan bakteriya "clostridium botulinum" adlandırılır. Əslində bu bakteriyalar insan orqanizmi üçün təhlükəli deyil. Lakin bakteriyalar tərəfindən əmələ gətirilən toksin - botulotoksin dünyada ən güclü bioloji zəhərlərdən biri hesab edilir.

Botulizm zəhərlənmələri bəzən o qədər təhlükəli olur ki, ölümə belə səbəb ola bilir. Yaxın illər ərzində botulizm hadisələri zamanı müxtəlif yaş qrupunda olan insanlar vəfat edib. Pomidor turşusundan Kürdəmirdə 46 yaşlı qadın zəhərlənərək vəfat etdi, Qazaxın Daş Salahlı kəndində 11 yaşlı uşaq da eyni səbəbdən dünyasını dəyişdi, Göygöldə 52 yaşlı qadın da turşudan zəhərlənərək öldü, Salyan rayonunda yas mərasimində 31 nəfər də məhz pomidor və xiyar turşusu, Beyləqanda 5 nəfər pomidor zəhərlənməsi ilə bağlı xəstəxanaya çatdırıldı. Yaxın illərdə tanınmış professorun 26 yaşlı oğlu bu səbəbdən dünyasını dəyişdi. Xatırlayırsınızsa bir neçə il əvvəl Gürcüstanda yaşayan 15 soydaşımız pomidor turşusundan zəhərlənmişdi, onlardan 3-ü dünyasını dəyişdi.

Özünüzü qida zəhərlənmələrindən sığortalamaq üçün ev şəraitində hazırladığınız turşuları, mürəbbələri yalnız təzə və keyfiyyətli meyvə və tərəvəzlərdən hazırlayın, yaxşı olar ki, meyvə-tərəvəzi yuyarkən suya bir az sirkə əlavə edəsiniz. Bankalaın qapağını bağlama prosedurunu dəqiqliklə yerinə yetirin. Konserv hazırlayarkən bankaları 1 saatdan az olmayaraq sterilizasiya edin. Botulizmi törədən mikroblar yalnız güclü və düzgün sterilizasiya zamanı məhv olur.

***Lalə Mehralı***

# Rusiyalı ekspertlər: “Erməni diplomatiyası “siyasi fahişəlik”lə məşğuldur”

*“Nə olursa-olsun, ilin sonuna kimi Ermənistan Azərbaycanla sülh müqaviləsi imzalamalı olacaq”*

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

***Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə “İctimai və dövlət maraqlarının müdafiəsi” istiqaməti çərçivəsində hazırlanıb.***







***“Niyə Bişkekə getməlisən, Strasburqa getmək daha yaxşıdır”– təxminən bu mantra ilə bir neçə gün əvvəl Ermənistanın baş naziri Paşinyan Elzasın paytaxtına erməni maraqlarının keşikçilərinin ayaqları qarşısında baş əymək üçün getmişdi. Bəs İrəvanın qəribə manevrlərinə təəccüblənmək lazımdırmı? Erməni liderinin paranormal siyasi məntiqi müxtəlif siyasi dairələrdə geniş müzakirə olunur.***

Belə görünür ki, Paşinyan ötən həftə Bişkekə gedib həm Azərbaycan prezidenti Əliyevlə, həm də Rusiya prezidenti Putinlə üz-üzə danışmalı idi. Amma yox, Nikol Vovaeviçin bəzi “təcili işləri” var. Amma Strasburqa getmək və həmişə olduğu kimi, avropalı deputatların qarşısında populizm etmək- o, buna kifayət qədər qadirdir. Niyə Avropa podiumunda özünü göstərməsin? Üstəlik, ona fürsət verilib ki, Azərbaycanı “hücum və etnik təmizləmə”də ittiham etsin, Qərbdən olan “dostlarına” fəryad etsin...

İrəvan bir söz deyəndə və tamam başqa şey edəndə hansı məqsəd və vəzifələri rəhbər tutur, Paşinyan Azərbaycanla sülh müqaviləsi imzalamaq fikrindədir, yoxsa biz yeni siyasi mövsümün erməni şoularını gözləyirik? Rusiyalı politoloqlar bu və digər sualların cavabını “Caliber” analitik mərkəzinə şərhlərində veriblər. Ekspertlərin fikirlərini oxucularımıza təqdim edirik.

Avrasiya üzrə ekspert Aleksandr Razuvayevin fikrincə, Paşinyanın anlaşılmaz görünən davranışı hələ də müəyyən məram və məqsədlər güdür, yəni Azərbaycana qarşı sanksiyalar tətbiq edilməsinə çalışır.

“Avropada artıq bu mövzuda müzakirələr gedir. Amma sanksiyaların tətbiq olunacağını düşünmürəm. Fakt budur ki, Azərbaycanın Avropa neft və qaz bazarındakı rolu Avropa İttifaqı üçün çox vacibdir. Üstəlik, Rusiya və İran nümunələri var ki, sanksiyalar, hətta çox ciddi sanksiyalar da öz məqsədinə çatmadı. Buna baxmayaraq, mən bu fikirdəyəm ki, nə olursa olsun, ilin sonuna kimi Azərbaycanla sülh müqaviləsi imzalanacaq. Azərbaycan müharibədə qalib gəldi, hərbi-siyasi üstünlüyünü nümayiş etdirdi, artıq sövdələşmə aparmağa heç bir əsas yoxdur. İrəvanın gözlənilməz siyasətinə gəlincə, bunların hamısı iqtidarsızlıqdan irəli gəlir. Ermənistan oturuşmuş ölkəyə, sözünə, əməlinə cavabdeh olan siyasi subyektə çevrilməyib. Bu isə ilk növbədə Ermənistanın özü üçün problemdir", - deyə A.Razuvayev bildirib.

Siyasi elmlər doktoru, Rusiya Federasiyasının 1-ci dərəcəli dövlət müşaviri Tatyana Poloskova Ermənistanın və onun baş nazirinin başına gələn hər şeyi daha sərt və istehza ilə xarakterizə edir. Politoloqun fikrincə, Paşinyan baş nazir olduğu müddətdə- istər siyasət baxımından, istər Qarabağdakı keçmiş separatçı quruma münasibətdə, istərsə də bütövlükdə Azərbaycanla münasibətlərin qurulmasında hər zaman oyunbazlıq edib. Erməni diplomatiyası tez-tez “siyasi fahişəlik” termini ilə müəyyən edilən bir növ danışıqların imitasiyası ilə məşğul olub.

“Əslində biz bunun bir variantını görürük, onu dərsliklərdə və digər mənbələrdə indi ayrıca bir növ - erməni diplomatiyası kimi göstərmək olar. Buna aid olan nələr var? Tamamilə göz qabağında olan şeylər: Paşinyan müxtəlif dəhlizlərdə, müxtəlif görüşlərdə tamamilə fərqli məlumatlar verdi və diametral şəkildə ziddiyyətli bəyanatlar verdi, lakin sərhədlərin delimitasiyası və sülh müqaviləsinin imzalanması prosesinə başlamaq üçün heç nə etmədi. Onun imkanı da var idi ki, elə bu günlərdə bəyan etsin ki, Ermənistan sərhədlər məsələsində və sülh müqaviləsinin imzalanmasında yenə də Azərbaycandan “xoş niyyət” gözləyir. Azərbaycan nə vaxtsa buna qarşı olubmu?"- politoloq sual edir.





Poloskova əmindir ki, Paşinyan indi erməni əhalisinin Qarabağdan köçməsi ilə bağlı vəziyyətdən istifadə edərək həyasızcasına və tamamilə erməni diplomatiyasına uyğun siyasət aparır. Heç kimin əhalini heç yerə sürmədiyini, lakin gedənlərin hamısının Azərbaycan ərazisini rahat tərk etmələri üçün hər cür şərait yaradıldığını bilsə də.

“Biz nəyi müşahidə edirik? Dünən rusdilli erməni kanallarına baxdım, dünyada çox şeylər görsəm də, hələ belə bir şey görməmişdim" deyən rusiyalı ekspert erməni siyasətçilərin çıxışlarının davamlı yalan axını, real vəziyyətə tamamilə zidd olan davamlı eyham axını olduğunu qeyd edir. Bəs niyə belədir? T.Poloskovanın fikrincə, Paşinyan indi ermənilərin Azərbaycandan Ermənistana köçməsindən sövdələşmə predmeti kimi istifadə etməyə çalışır.

“Və o, bunu bir neçə gün əvvəl Strasburqda etdi. Ən azından o, Aİ-dən humanitar yardım almağın, onların, özünün dediyi kimi, “qaçqınların” köçürülməsi üçün maliyyələşdirmənin yaxşı olacağını söylədi. Və mənə çox maraqlıdır ki, bu pullar indi hara gedəcək, həqiqətən bilmək istərdim ki, bu pulla nə qədər məktəb, xəstəxana, “qaçqınlar” üçün lazım olan sosial layihələr tikiləcək? Bəs Ermənistan rəhbərliyinin neçə yeni mənzili olacaq? Məncə, kifayət qədər çox şey ortaya çıxacaq. Nə isə, Paşinyan Strasburqda əslində öz sevgisinə imza atıb və öz monofizit xaçında Avropa İttifaqına sədaqət andı içib. Strasburqda belə olub",- politoloq deyir.



Eyni zamanda, Poloskovanın dəqiq qeyd etdiyi kimi, Paşinyan unudur ki, o, Avropa İttifaqı üçün heç də bərabərhüquqlu fiqur deyil, sadəcə olaraq onların Cənubi Qafqazda hansısa çirkli kombinasiyalarını həyata keçiriləcəkləri adi bir alətdir.

“Əslində Paşinyan indi yeni münaqişələrə başlamaq üçün Avropadan Cənubi Qafqaza atılacaq it sümüyünə çevrilib. Və bu mənada mən hətta Ermənistan üçün təəssüflənirəm- onu çox çətin günlər gözləyir", - deyə T.Poloskova yekunlaşdırıb.

***Tərcümə - Elçin Bayramlı***

# “SƏS” qəzetinə abunə kampaniyası davam edir!



«SƏS» QƏZETİNƏ
ABUNƏ OLMAQ İSTƏYƏNLƏR
AŞAĞIDAKI YAYIM
ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ
SAXLAYA BİLƏRLƏR

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Qasid Mətbuat Yayım – 0124931406, 0124938343
7. F.Ş.Ruhid Hüseynov – 0124349301, 0505357898
8. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN
6 aylıq 79.20 AZN
1 illik 158.40 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!

# Analar oğlan uşaqları və yeniyetmələri hansı içkilərdən uzaq tutmalıdır?

*“Bir neçə il əvvəl bir çox Avropa ölkələrində qadağan olunan energetik içki brendləri təəssüf ki, qısa müddətdə Azərbaycana və bütün postsovet ölkələrinə sürətlə yayılıb. Bu içkilərin zərərləri, hətta ölümə səbəb olması barədə yayılan məlumatlar, tələbatı azaltmaq əvəzinə artırır". Bu sözləri SİA-ya açıqlamasında həkim-dietoloq Leyla Zülfüqarlı deyib.*



## HƏKİM-DİETOLOQ AÇIQLADI

Leyla Zülfüqarlı sözlərinə belə davam edib: ”Mən bu içkilərə enerjiverici yox, enerjisovurucu, enerjidağıdıcı içkilər deyirəm. Çünki tərkibində elə maddələrin birləşməsi, yüksək kofein vardır ki, bunların artıq dozada qəbulu insanı məhvə aparır. Energetik içkilərin tərkibində Taurin var. Bu bir amin turşudur. İnsan orqanizmində də, heyvanlarda da ifraz olunur. Bu, daha çox öküzün ödü və spermasında var. Təbii ki, sənayedə insan taurinindən yox, öküzlərdən alınmış taurin istifadə olunur. Energetik içkilər o qədər çox istehsal olunur ki, ehtimal var ki, taurin məhz öküz spermasından qaynaqlanır. Təhlükə təkcə taurin deyil ki.. İçkilərin tərkibində şəkər, kofein də çoxdur.

İnsan orqanizminin gündəlik kofein norması 300-400 mq-dır. Gün ərzində çay, kofe, qazlı içkilər, bəzi yeməklərlə kofein dozasını alırıq. İndi təsəvvür edin, bir-iki banka da energetik içki içərsə, orqanizmə sanki kofein bombası düşür, beyin, qan dövranı, ürək, sinirlər ikiqat yüklənir, sürətlə işləyir və 1 saatın içində olan-qalan enerjini də aparır. Halbuki həmin enerji 1 gün bəs edərdi. Ona görə uşaqlar, gənclər yatmır, yatsa da yuxudan doymur, yorğun, halsız, key kimi olur. Nevroz, nevrasteniya, apatiya, yorğunluq, bir sıra beyin pozulmaları: ”Avropada və Rusiyada bu içkiləri çox qəbul edən 1-2 gəncin ölümü faktları var. Azərbaycanda bu fakt var, ya yoxdur, dəqiq bilmirəm. Bəlkə də hər hansı gənc ürək tutmasından vəfat edib, amma heç kim onun energetik içki qəbul edib-etməməyinin fərqinə varmayıb.

Energetik içkilər 2 cür olur: alkoqollu və alkoqolsuz. Alkoqolluda dediklərim ikiqat dozadadır. İstirahət mərkəzlərində masada energetik alkoqollu və digər spirtli içkilər görürük. Bunlar birgə qəbul olunur, bu isə fəlakətdir. Ona görə yollarda vəhşiləşmiş sürücülər artır. Energetik içkiləri davamlı olaraq qəbul edən sürücülər təhlükə mənbəyidir.

Son zamanlar insanlarda vəhşilik, quduzlaşma, canavarlaşma sindromu çoxalıb. Kişilər ətrafa, özünə, ailəsinə qarşı qəddarlaşır. Mənəvi – maddi problemləri önə çəkirlər, amma birinci növbədə nə yeyibiçdiyimizə diqqət yetirməliyik. Xüsusən analar oğlan uşaqları və yeniyetmələri bu içkilərdən uzaq tutmalıdır”.

***Ayşən Vəli***

# Messi ilinə 12 milyon dollar qazanır!

ABŞ-ın “İnter Mayami” klubunun futbolçusu Lionel Messi qazandığı məvaciblə MLS tarixinin rekordçusudur. MLS Oyunçular Assosiasiyasının araşdırmasına görə, Argentina millisinin üzvünün illik qazancı 12 milyon, zəmanətli təzminatı isə 20,4 milyon dollardır.

Zəmanətli kompensasiyaya maaşla yanaşı, bonuslar da daxildir. Reklam gəlirləri ilə birlikdə 36 yaşlı hücumçunun illik gəliri təxminən 50-60 milyon dollar təşkil edir. Hazırda MLS-in ən yüksək maaş alan oyunçularının sıralamasında ikinci yeri “Toronto”nun yarımmüdafiəçisi Lorentso İnsinye tutur. Onun gəliri 7,5 milyon dollara bərabərdir. “Çikaqo Fayr”ın üzvü Cerdan Şakiri isə 7,35 milyon dollarlıq məvaciblə ilk “üçlüy”ü qapayır.




## ELAN

Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyası aşağıdakı kafedralarda vakant yerləri tutmaq üçün müsabiqə elan edir.

“Şifahi, ənənəli Azərbaycan professional musiqisi və onun yeni istiqamətlərinin tədqiqi”: orqanologiya və akustika elmi laboratoriyası

**Laboratoriya müdiri, elmlər namizədi**

Aparıcı elmi işçi, sənətşünaslıq üzrə fəlsəfə doktoru

**Kamera ansamblı kafedrası**

Professor

**Simli alətlər kafedrası**

Baş müəllim

**Konsertmeyster ustalığı kafedrası**

Baş müəllim

**Müsabiqə müddəti elan qəzetdə dərc edildikdən sonra bir aydır.**

**Ərizə və sənədlər müsabiqə haqqında əsasnaməyə uyğun rektorun adına bu ünvana göndərilə bilər.**

**Bakı şəhəri, Az-1014. Ş.Bədəlbəyli küçəsi 98.**

# Azerconnect şirkəti nüfuzlu Stevie® mükafatına layiq görülüb

*Azərbaycanda İKT və yüksək texnologiyalar sahəsində lider şirkətlərdən biri olan Azerconnect icra etdiyi innovativ layihələrə görə bir neçə kateqoriya üzrə nüfuzlu Stevie® mükafatına layiq görülüb. Belə ki, Azerconnect həyata keçirdiyi "Inspire.Lead.Create:Women Leadership" proqramı ilə Müxtəliflik və inklüzivlikdə nailiyyətə görə Gümüş,“FLEXcellence:Hybrid Working” proqramı ilə İşçi heyəti üçün məsafədən iş rejiminin idarə edilməsində nailiyyətə görə Gümüş, eləcə də “Hybrid Leadership” proqramı ilə Qarışıq öyrənmənin ən yaxşı istifadəsi üzrə Bürünc mükafatlarını əldə edib.*




Bu mükafatlar insan resursları nailiyyəti kateqoriyasında Ən yaxşı işəgötürənlər (Stevie® Awards for Great Employers) üçün səkkizinci illik Stevie® Mükafatları çərçivəsində təqdim olunub. “Stevie® Awards for Great Employers” dünyada ən yaxşı işəgötürənlərə təqdim olunan beynəlxalq mükafat proqramıdır.

Qeyd edək ki, “Stevie® Awards for Great Employers”in məqsədi dünyanın ən yaxşı işəgötürənləri və mükəmməl iş yerləri yaratmağa və idarə etməyə kömək edən insan resursları mütəxəssislərinin, komandaların, nailiyyətlərinvə insan resursları ilə əlaqəli məhsul və təchizatçılarını tanıdılmasıdır. Azerconnect şirkətinin icra etdiyi proqramlarla iki Gümüş və bir Bürünc mükafata layiq görülməsi şirkətin inklüziv təbiətə malik olduğunu sübut edərək öz əməkdaşlarını dəyərləndirməyə, müxtəlifliyi təşviq etməyə, məsafədən işin effektiv idarə olunmasına, eləcə də işçi qüvvəsinin peşəkar inkişafı dəstəkləməyə sadiqliyini nümayiş etdirir.

Azerconnect haqqında:

Azerconnect şirkəti ölkəmizin dinamik şəkildə inkişaf edən İKT və yüksək texnologiyalar sahələrində beynəlxalq standartlara uyğun müxtəlif xidmətlər təqdim edən ilk B2B (Business to Business - Biznesdən biznesə) şirkətdir.Azerconnect müxtəlif ölkələrdə enerji, telekommunikasiya, yüksək texnologiyalar və tikinti sahələrində fəaliyyət göstərən NEQSOL Holding beynəlxalq şirkətlər qrupunun tərkibinə daxildir.

Azerconnect insan resursları sahəsində mükəmməlliyinə görə altı fərqli kateqoriya üzrə dünyanın nüfuzlu “Ən Yaxşı İşəgötürənlər İnstitutu” (Top Employer Institute) tərəfindən Azərbaycanda 2023-cü il üzrə “Ən Yaxşı İşəgötürən” sertifikatına layiq görülüb. Şirkət həmçinin bu il üç müxtəlif kateqoriya üzrə nüfuzlu Brandon Hall Group Mükəmməllik Mükafatına layiq görülüb.

***Baş redaktor:***
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**“ƏLİNCƏ” AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 4000**